
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 noyabr
2026-cı il,
çərşənbə axşamı
№ 209 (7276)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!



Xalqı milli ideya ətrafında birləşdirən tarixi gün



Dublin sammiti: Azərbaycanın real orta güc statusunun növbəti təsdiqi

Bax səh. 2

Bir əsrlik şərəfli yol...

Bax səh. 3

Azərbaycanın artan nüfuzuna qarşı kiberhücumlar...

İnformasiya texnologiyalarının sürətli inkişafı özündə yeni təhlükəsizlik təhdidlərini də meydana çıxarır. Bu gün kiberhücumlar beynəlxalq münasibətlər sistemində tez-tez təsadüf edilən hallardan birinə çevrilib. Dövlət qurumlarının informasiya sistemləri, strateji infrastrukturlar, siyasi institutlar və yüksək səviyyəli dövlət rəsmilərinin sosial şəbəkə hesabları belə hücumların hədəfinə çevrilir. Xüsusilə beynəlxalq siyasətdə mühüm rol oynayan, regional və qlobal proseslərə təsir imkanları artan dövlətlərin informasiya məkanında bu kimi təhdidlərə daha çox rast gəlinir ki, bu da təsadüfi deyil.

Qeyd edək ki, Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin məlumatına görə, noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarına qarşı kiberhücumlar müşahidə olunub. Aidiyyəti qurumlar tərəfindən bu hücumların qarşısının alınması və araşdırılması istiqamətində müvafiq tədbirlər görülüb.

Məsələyə yalnız texniki təhlükəsizlik hadisəsi kimi yanaşmaq olmaz - bu Azərbaycanın son illərdə beynəlxalq münasibətlər sistemində artan siyasi çəkisindən, regional proseslərdəki aparıcı mövqeyindən və müstəqil xarici siyasət kursundan narahatlığın ortaya çıxardığı hücum cəhdidir. Ölkəmiz artıq yalnız Cənubi Qafqazın mühüm siyasi və iqtisadi mərkəzi deyil, həm də qlobal əməkdaşlığın, enerji təhlükəsizliyinin, nəqliyyat-logistika əlaqələrinin və regional dialoqun təşviqində aparıcı rol oynayan dövlətdir.

Xüsusilə nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev sosial şəbəkələrdən müasir siyasi kommunikasiya vasitəsi kimi fəal istifadə edir. Dövlət başçısının...

Bax səh. 2



Milli Məclisin iclasında...

Bax səh. 4

Azərbaycan-Böyük Britaniya strateji tərəfdaşlığı...

Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsi, müxtəlif coğrafiyaları əhatə edən tərəfdaşlıq əlaqələrinin genişlənməsi ölkəmizin xarici siyasət strategiyasının mühüm nəticələrindəndir. Təsadüfi deyil ki, ölkəmiz 4 ölkə ilə müttəfiq olmaqla yanaşı, 20-dən yuxarı dövlətlə bu və ya digər şəkildə strateji tərəfdaşlıq əlaqələrinə malikdir.

Azərbaycanın xarici siyasətində hər zaman Böyük Britaniya ilə münasibətlər xüsusi yer tutur. Tarixi ənənələrə, qarşılıqlı maraqlara və uzunmüddətli əməkdaşlıq təcrübəsinə söykənən Azərbaycan-Böyük Britaniya əlaqələri artıq yeni məzmun və keyfiyyət mərhələsinə qədəm qoyub. Dublində iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə münasibətlərin yalnız mövcud istiqamətlər üzrə davam etdirilməsini deyil, həm də gələcək inkişafın yeni prioritetlərinin müəyyənləşdirilməsini nəzərdə tutur. Sənədin müdafiə və təhlükəsizliklə yanaşı iqtisadiyyat, ticarət, investisiya, təhsil və innovasiya kimi sahələri də əhatə etməsi tərəfdaşlığın çoxşaxəli xarakterini nümayiş etdirir. Bu, Azərbaycanın iqtisadi potensialına, əlverişli investisiya mühitinə, beynəlxalq nəqliyyat-kommunikasiya imkanlarına və intellektual resurslarına göstərilən marağın ifadəsidir. Eyni zamanda, əməkdaşlığın yeni istiqamətləri Azərbaycanın müasir milli inkişaf strategiyasının hədəfləri ilə də uzlaşır. Çünki müasir dövrdə dövlətlərin gücü yalnız siyasi və hərbi imkanlarla deyil, iqtisadi rəqabət qabiliyyəti, texnoloji yeniliklərə çıxış, insan kapitalı və qlobal iqtisadi əlaqələrdə tutduğu mövqe ilə ölçülür. Bu baxımdan imzalanan Birgə Bəyannamə Azərbaycan-Böyük Britaniya...

Bax səh. 3

Azərbaycanın Avropada mövqeyini gücləndirən amillər

Bax səh. 4

Beynəlxalq Valyuta Fondunun nikbin ssenarisi

Bax səh. 5

3,8 milyard avrodan çox...

Bax səh. 6




NATO-nun Albaniya sammiti niyə təxirə salınıb?

Bax səh. 6



Cinayət iqtisadiyyatı

Bax səh. 7





Dublin sammiti: Azərbaycanın real orta güc statusunun növbəti təsdiqi

Bakı ilə Avropa arasındakı münasibətlərdə yeni siyasi mərhələ

Yeni siyasi-iqtisadi nizamın ortaya çıxardığı həqiqətlərdən biri də artıq qlobal proseslərdə orta güc statuslu dövlətləritn də aktiv iştirakıdır. 2020-ci ildən sonra Avrasiyanın siyasi-iqtisadi atlasında baş verən mühüm nüanslar yeni orta güclərin həm qitələrarası münasibətlər sisteminin formalaşmasında, həm də iqtisadi inteqrasiyalardakı rolunu genişləndirib. Azərbaycan da yeni orta güc statuslu dövlət olaraq son illərdə həyata keçirdiyi çoxşaxəli xarici siyasət nəticəsində bu istiqamətlərin hər biri üzrə mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Xüsusilə Avropa dövlətləri ilə münasibətlərin yeni məzmun qazanması, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın genişlənməsi və ölkəmizin mühüm siyasi platformalarda fəal iştirakı Azərbaycanın beynəlxalq nüfuzunun artdığını təsdiqləyir.

Prezident İlham Əliyevin 2026-cı il noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində keçirilən Avropa Siyasi Birliyinin (ASB) 9-cu Zirvə toplantısında iştirakı bu baxımdan xüsusi siyasi əhəmiyyət daşıyır. Təxminən 50 dövlət və hökumət başçısının qatıldığı tədbir Avropanın təhlükəsizlik, iqtisadi dayanıqlılıq, enerji təminatı və nəqliyyat bağlantıları kimi aktual məsələlərinin müzakirəsi üçün mühüm platforma rolunu oynadı. Azərbaycanın dövlət başçısının bu toplantıda iştirakı ölkəmizin Avropa gündəliyinə təsir imkanlarını genişləndirməklə yanaşı, milli maraqlarımızın beynəlxalq səviyyədə ifadəsi üçün əlavə imkanlar yaratdı. Dublin sammiti bir daha nümayiş etdirdi ki, Azərbaycan Avropa münasibətləri birtərəfli inkişaf mahiyyəti daşımır - tam əksinə, iqtisadi tərəfdaşlıqla yanaşı qoca qitə ilə Bakı arasında yüksəksəviyyəli siyasi dialoq, regional təhlükəsizliyin möhkəmləndirilməsi və yeni əməkdaşlıq mexanizmlərinin formalaşması baxımından da konkret təşəbbüslərə söykənən tərəfdaşlıq əlaqələri oturuşur.

Uğurlu xarici siyasət kursunun nəticələri

Bir məqamı xüsusi qeyd etmək lazımdır ki, Avropa ölkələrinin Azərbaycanla siyasi və iqtisadi əlaqələri genişləndirmək istiqamətində nümayiş etdirdiyi fəallıq təsadüfi deyil - bu münasibətlərin arxasında ölkəmizin beynəlxalq arenada qazandığı etimad, həyata keçirdiyi müstəqil siyasət və regional proseslərdə artan təsir imkanları dayanır. Azərbaycan artıq yalnız geostrateji coğrafi üstünlüklərə malik dövlət kimi xarakterizə olunmur - Bakı artıq Avropa ilə Asiya arasında siyasi, iqtisadi və nəqliyyat əlaqələrinin inkişafında mühüm rol oynayan orta güc statuslu regional aktor kimi qəbul edilir. Prezident İlham Əliyevin müxtəlif beynəlxalq platformalarda nümayiş etdirdiyi prinsipial mövqe və qətiiyyət, oratya qoyduğu real siyasət bu etimadın formalaşmasında ən mühüm amildir.

Bir statistikaya diqqət yetirmək lazımdır - post-müharibə dövründə Avropanın aparıcı strukturlarının rəhbərlərinin regional proseslərə münasibəti məhz Bakının mövqeyi əsasında müəyyənləşir. Bunun nəticəsidir ki, hətta Avropa İttifaqının rəhbərliyində təmsil olunan şəxslərin Bakıya səfərləri intensivləşib - dövlətimizin başçısı ilə keçirilən görüşlər və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi qarşılıqlı münasibətlərin dinamikasını aydın göstərir. 2025-ci ildə Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın, genişlənmə üzrə komissarı Marta Kosun Azərbaycana səfərləri, 2026-cı ilin martında Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın və enerji və mənzil məsələləri üzrə komissar Dan Yorgensenin Bakıya səfərləri, bu ilin iyulunda Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin işgüzar səfəri bu əlaqələrin yüksək səviyyədə olduğunu təsdiqləyir. Paralel olaraq diqqətçəkən digər məqam Azərbaycanın dövlət başçısının beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlərə olan qarşılıqlı maraqdır. Avropanın ən mühüm siyasi-iqtisadi platformaları sayılan Davos, Münxen və digər nüfuzlu beynəlxalq tədbirlərdə formalaşan ikitərəfli təmaslar Azərbaycanın siyasi mövqeyinə verilən qiymətin göstəricisidir. Belə görüşlər qarşı tərəfin Azərbaycanla münasibətləri inkişaf etdirmək istəyini, ölkəmizin regional və beynəlxalq məsələlərdə fikirlərinə önəm verildiyini nümayiş etdirir. Əslində, diplomatik münasibətlərdə nüfuzun ən mühüm göstəricilərindən biri tərəfdaşların sizinlə dialoqa ehtiyac duymasıdır. Azərbaycanın qazandığı mövqe də məhz bu reallıqda ifadə olunur.

Enerji və nəqliyyat: Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti böyükdür

Sirr deyil ki, Azərbaycanın Avropa ilə münasibətlərinin möhkəmlənməsində iqtisadi əməkdaşlıq, xüsusilə enerji təhlükəsizliyi və nəqliyyat-logistika sahələri xüsusi yer tutur. Ölkəmizin bu istiqamətlərdə qazandığı nəticələr onu Avropa dövlətləri üçün əhəmiyyətli tərəfdaşlardan birinə çevirib. Ən mühüm məqam isə Azərbaycanın əməkdaşlığı yalnız mövcud resursların ixracı ilə məhdudlaşdırmaması, uzunmüddətli regional bağlantıların yaradılmasına və yeni enerji arxitekturasının formalaşmasına sərmayə qoymasıdır. 2022-ci il iyulun 18-də Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması münasibətlərdə yeni mərhələnin başlanğıcı olmuşdu. Sənəd Avropanın enerji mənbələrinin şaxələndirilməsi və Azərbaycan qazının Avropa bazarlarına çatdırılmasının genişləndirilməsi baxımından mühüm siyasi-hüquqi əsas yaratdı. Hazırda Azərbaycan 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə təbii qaz ixrac edir. Bu göstərici ölkəmizin enerji təchizatçısı kimi etibarlılığını və Avropanın enerji təhlükəsizliyindəki rolunu təsdiqləyir. Əməkdaşlığın perspektivləri isə ənənəvi enerji resursları ilə bitmir. Xəzər dənizinin zəngin külək enerjisi potensialı, günəş elektrik stansiyalarının yaradılması, Mərkəzi Asiya ilə yaşıl enerji bağlantılarının qurulması və Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi Azərbaycanın Avropa ilə enerji əməkdaşlığını yeni müstəviyə çıxara bilər. Bu layihələr ölkəmizin gələcəkdə yaşıl enerjinin istehsalçısı və tranzit iştirakçısı kimi mövqeyini gücləndirmək imkanlarına malikdir.

2020-ci il Vətən müharibəsitndə qazanılan şələbə isə bütövlükdə Avrasiyanın iqtisadi nəqliyyat xəritəsinə vacib elementləri əlavə etmiş oldu. Bakı regionda yeni təhlükəsizlik arxitekturası yaratmaqla yanaşı, qlobal daşımaçılıqda yeni bir səhifə açmış oldu. Bunun nəticəsidir ki, Orta Dəhlizin inkişafı, Şərq-Qərb və Şimal-Cənub marşrutlarının ölkəmizin ərazisindən keçməsi beynəlxalq yükdaşımaların səmərəliliyini də artırır. Xəzər hövzəsi ilə Avropa arasında əlaqələrin genişlənməsi Azərbaycanı mühüm logistika mərkəzinə çevirir. Təsadüfi deyil ki, Dublin sammitinin gündəliyində də enerji təminatı və nəqliyyat bağlantıları əsas müzakirə istiqamətləri sırasında yer alıb. Bu, Azərbaycanın artıq real layihələrlə töhfə verdiyi sahələrin Avropa üçün əhəmiyyətini bir daha önə çıxarır. Bakı bu gün Orta dəhlizin şaxələndirilməsi layihəsi üzərində fəal iş aparır - məhz Azərbaycanın irəli sürdüyü təşəbbüs əsasında Zəngəzur dəhlizi (TRİPP) açılır. 2025-ci ilin avqustunda Vaşinqtonda özünün beynəlxalq dəstəyini qazanmış bu layihə Avropanın da diqqət mərkəzindədir. Bu ilin yayında həm AK rəhbərinin bakı səfəri zamanı, həm də Azərbaycan Prezidentinin Almaniyaya səfəri çərçivəsində keçirilən görüşlərdə Avropanın Asiya ilə iqtisadi əlaqələrinin inkişafının məhz Azərbaycan üzərindən edilməsi məsələsi aparıcı mövcudlardan biri olmuşdu.

Dublin görüşləri: Azərbaycanın Avropa ölkələri ilə çoxşaxəli siyasi dialoqu genişlənir

Prezident İlham Əliyevin Dublin sammitində iştirakı yalnız çoxtərəfli müzakirələrlə məhdudlaşmadı. Zirvə toplantısı çərçivəsində dövlətimizin başçısının bir sıra ölkələrin liderləri və Avropa institutlarının rəhbərləri ilə keçirdiyi görüşlər Azərbaycanın ikitərəfli diplomatiyasının da fəallığını nümayiş etdirdi. Müxtəlif coğrafiyaları və siyasi maraqları təmsil edən dövlətlərlə aparılan danışıqlar ölkəmizin Avropa məkanında geniş tərəfdaşlıq şəbəkəsinə malik olduğunu göstərdi. Mövzular isə genişspektrli idi. Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, özəl sektor arasında əməkdaşlıq və humanitar məsələlər, Moldova Prezidenti Maya Sandu ilə təmaslarda enerji təhlükəsizliyi, kənd təsərrüfatı və qarşılıqlı iqtisadi əlaqələrin inkişafı, Bolqarıstanın Baş naziri Rumen Radev və Yunanıstanın Baş naziri Kiriakos Miçotakis ilə danışıqlarda enerji sahəsində əməkdaşlıq, qaz təchizatı və yeni bağlantı imkanları, Çexiyanın Baş naziri Andrey Babişlə görüşdə isə iqtisadi-ticari münasibətlərin, investisiya layihələrinin və biznes əlaqələrinin genişləndirilməsi məsələlərinə toxunuldu. Dublin təmaslarının ən mühüm siyasi istiqamətlərindən biri Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirilən görüş oldu. Tərəflər sülh gündəliyinin irəlilədilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat və tranzit əlaqələrinin inkişafı, TRIPP layihəsinin reallaşdırılması və iqtisadi-ticari münasibətlərin genişləndirilməsi ətrafında fikir mübadiləsi apardılar. Bu görüş Cənubi Qafqazda davamlı sülhün təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin keçirdiyi görüşlər arasında Rumıniya Prezidenti Nikuşor Dan, Litva Prezidenti Gitanas Nauseda və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə keçirilən görüşlər də siyasi dialoqun müxtəlif istiqamətlərini əhatə etdi. Böyük Britaniyanın Baş naziri Endi Börnhemlə görüş və Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin mübadiləsi isə Dublin səfərinin mühüm nəticələrindən biri kimi qiymətləndirilə bilər. Bütün bunlar Azərbaycanın Avropa ilə münasibətlərinin ayrı-ayrı sahələr üzrə deyil, bütöv strateji əməkdaşlıq məntiqi əsasında inkişaf etdiyini göstərir.

Vurğulanmalıdır ki, Avropa Siyasi Birliyi yarandığı gündən etibarən Avropa qitəsində ortaq çağırışların müzakirəsi, dövlətlər arasında siyasi əlaqələrin möhkəmləndirilməsi və təhlükəsizlik məsələləri üzrə fikir mübadiləsinin aparılması üçün mühüm platformaya çevrilib. Azərbaycan bu formatın fəaliyyətində başlanğıcdan etibarən fəal iştirak etməklə Avropa siyasi məkanındakı mövqeyini daha da möhkəmləndirib. Prezident İlham Əliyevin Praqa, Bulboaka, Oksford, Tirana, Kopenhagen, İrəvan və Dublin sammitlərində iştirakı ölkəmizin bu platformaya verdiyi önəmin göstəricisidir. Xüsusilə 2026-cı il mayın 4-də İrəvanda keçirilən 8-ci Zirvə toplantısına dövlət başçısının videobağlantı vasitəsilə qoşulması Azərbaycanın regional sülh təşəbbüslərinin beynəlxalq müstəvidə təqdim edilməsi baxımından diqqətəlayiq hadisə oldu.

Prezident İlham Əliyev həmin çıxışında Azərbaycanın 2028-ci ilin mayında ASB sammitinə ev sahibliyi edəcəyini açıqladı. Bu qərarın qəbulunda Ermənistanın da Azərbaycanın namizədliyini dəstəkləməsi xüsusi siyasi məna daşıyır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu addım iki ölkə arasında sülhün mövcudluğunun və yeni münasibətlər mərhələsinin formalaşmasının göstəricilərindən biridir.

Azərbaycanın 2028-ci ildə belə nüfuzlu tədbirə ev sahibliyi etməsi ölkəmizin diplomatik imkanlarının genişlənməsini təsdiqləyən mühüm hadisə olacaq. Bu, sadəcə təşkilati məsələ deyil. Bakı sammiti Avropa dövlətlərinin rəhbərləri ilə birbaşa siyasi dialoqun genişləndirilməsi, regional məsələlərin ölkəmizin mövqeyindən təqdim olunması və yeni əməkdaşlıq mexanizmlərinin müzakirəsi üçün əlverişli şərait yaradacaq.

Digər tərəfdən, Azərbaycanın beynəlxalq gündəliyi yalnız Avropa istiqaməti ilə məhdudlaşmır. Mərkəzi Asiya dövlətləri ilə inteqrasiyanın dərinləşdirilməsi, İslam dünyası ilə əlaqələrin möhkəmləndirilməsi, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyin davam etdirilməsi ölkəmizin çoxşaxəli diplomatiyasının miqyasını göstərir. Azərbaycan müxtəlif siyasi və iqtisadi məkanlar arasında əlaqələndirici rolunu gücləndirməklə beynəlxalq münasibətlər sistemində özünəməxsus mövqeyini möhkəmləndirir.

Pərviz SADAYOĞLU



Azərbaycanın artan nüfuzuna qarşı kiberhücumlar...

Prezidentin sosial şəbəkə hesablarına qarşı kiberhücum cəhdləri olub

İnformasiya texnologiyalarının sürətli inkişafı özündə yeni təhlükəsizlik təhdidlərini də meydana çıxarır. Bu gün kiberhücumlar beynəlxalq münasibətlər sistemində tez-tez təsadüf edilən hallardan birinə çevrilib. Dövlət qurumlarının informasiya sistemləri, strateji infrastrukturlar, siyasi institutlar və yüksək səviyyəli dövlət rəsmilərinin sosial şəbəkə hesabları belə hücumların hədəfinə çevrilir. Xüsusilə beynəlxalq siyasətdə mühüm rol oynayan, regional və qlobal proseslərə təsir imkanları artan dövlətlərin informasiya məkanında bu kimi təhdidlərə daha çox rast gəlinir ki, bu da təsadüfi deyil.

Qeyd edək ki, Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin məlumatına görə, noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarına qarşı kiberhücumlar müşahidə olunub. Aidiyyəti qurumlar tərəfindən bu hücumların qarşısının alınması və araşdırılması istiqamətində müvafiq tədbirlər görülüb.

Məsələyə yalnız texniki təhlükəsizlik hadisəsi kimi yanaşmaq olmaz - bu Azərbaycanın son illərdə beynəlxalq münasibətlər sistemində artan siyasi çəkisindən, regional proseslərdəki aparıcı mövqeyindən və müstəqil xarici siyasət kursundan narahatlığın ortaya çıxardığı hücum cəhdidir. Ölkəmiz artıq yalnız Cənubi Qafqazın mühüm siyasi və iqtisadi mərkəzi deyil, həm də qlobal əməkdaşlığın, enerji təhlükəsizliyinin, nəqliyyat-logistika əlaqələrinin və regional dialoqun təşviqində aparıcı rol oynayan dövlətdir.

Xüsusilə nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev sosial şəbəkələrdən müasir siyasi kommunikasiya vasitəsi kimi fəal istifadə edir. Dövlət başçısının rəsmi hesabları vasitəsilə mühüm siyasi qərarlar, beynəlxalq görüşlər, xarici səfərlər, ölkənin sosial-iqtisadi inkişafı və regional proseslərlə bağlı mesajlar geniş auditoriyaya çatdırılır. Prezidentin hətta hər həftə ərzindəki fəaliyyətini əks etdirən videoicmalların paylaşılması bu kommunikasiya siyasətinin ardıcıl xarakter daşıdığını göstərir. Bu paylaşımlar ölkə ictimaiyyətinin məlumatlandırılması ilə yanaşı, Azərbaycanın siyasi gündəminin beynəlxalq auditoriyaya çatdırılması baxımından da əhəmiyyətlidir.

Beləliklə, Prezidentin sosial şəbəkə hesabları sadəcə şəxsi profillər deyil, dövlətin rəsmi mövqeyinin ifadə olunduğu, Azərbaycanın beynəlxalq imicinin təqdim edildiyi və siyasi mesajlarının birbaşa dünya ictimaiyyətinə çatdırıldığı kommunikasiya platformalarıdır.

Dünya təcrübəsi də göstərir ki, dövlət və hökumət başçılarının sosial şəbəkə hesabları kiberhücumların hədəfində ola bilir. Son illərdə bunun bir sıra konkret nümunələri qeydə alınıb. Məsələn, 2025-ci ilin aprelində Çexiyanın Baş naziri Petr Fialanın X hesabına da haker müdaxiləsi baş vermişdi. Baş nazir hücumun xaricdən həyata keçirildiyini bildirmişdi və iki mərhələli autentifikasiya daxil olmaqla təhlükəsizlik tədbirlərinə baxmayaraq, hücumçuların hesaba müdaxilə edə bildiklərini açıqlamışdı. Bu ilin iyununda isə ABŞ-ın keçmiş Prezidenti Barak Obamanın prezidentliyi dövrünə aid rəsmi Ağ Ev Instagram hesabı haker müdaxiləsinə məruz qalmışdı. Hesabda icazəsiz paylaşımlar yerləşdirilmişdi və Meta şirkəti müdaxiləni təsdiqləyərək hesabın təhlükəsizliyini bərpa etmişdi. Bu kimi nümunələr göstərir ki, kiberhücumlar ayrı-ayrı ölkələrə və siyasi sistemlərə məxsus problem deyil. Dünyanın ən güclü dövlətlərinin siyasi liderləri və yüksəksəviyyəli rəsmiləri belə bu təhlükədən sığortalanmayıblar.

Baş verən hadisə Azərbaycanın müvafiq dövlət qurumlarının kibertəhlükəsizlik sahəsində çevik və koordinasiyalı fəaliyyətinin əhəmiyyətini də ön plana çıxarır. Prezidentin Mətbuat Xidmətinin məlumatında da qeyd olunduğu kimi, hücumların qarşısının alınması və araşdırılması istiqamətində tədbirlər görülüb. Rəsmi hesabların fəaliyyətinin davam etməsi isə ictimai kommunikasiyanın pozulmadığını göstərir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin sosial şəbəkə hesablarına qarşı kiberhücumlar Azərbaycanın artan beynəlxalq siyasi çəkisi və informasiya məkanındakı mövqeyi fonunda xüsusi diqqət tələb edən hadisədir. Bu cür cəhdlər bir daha təsdiqləyir ki, müasir dünyada dövlət suverenliyi yalnız ərazi və sərhədlərin qorunması ilə məhdudlaşmır. İnformasiya məkanının, rəqəmsal platformaların və dövlətin rəsmi kommunikasiya kanallarının təhlükəsizliyi də milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilib. Azərbaycanın qarşısında duran vəzifə isə əldə etdiyi siyasi nüfuzu, beynəlxalq mövqelərini və informasiya imkanlarını etibarlı kibermüdafiə sistemi ilə qorumaqdır.

SADİQ



Bir əsrlik şərəfli yol...

Prezident İlham Əliyev: Radio və televiziya bu gün də dövlətçilik ənənələrimizin, milli kimliyimizin və Azərbaycan həqiqətlərinin təbliği, həmçinin ölkəmizə qarşı ideoloji hücumların qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır

Bu günlərdə ölkəmizdə milli radio və televiziya yayımının əlamətdar yubileyi qeyd olunur. 100 il bundan əvvəl Azərbaycan radiosunun efirə çıxması ilə başlayan bu yol çox şərəfli olub. 1926-cı il noyabrın 6-da ilk dəfə səslənən "Danışır Bakı", 1956-cı il fevralın 14-də isə televiziya ekranlarından eşidilən "Göstərir Bakı" sözləri respublikamızın teleradio tarixində uğurlu başlanğıc olub.

Bu il hər iki qurumun əlamətdar yubileyidir - Azərbaycan radiosu 100, Azərbaycan televiziyası isə 70 yaşını qeyd edir. Azərbaycan Prezidenti İlham Əliyev yubiley münasibətilə televiziya və radio işçilərinə təbrik məktubu ünvanlayıb. Dövlətimizin başçısı məktubunda hər iki kollektivin fəaliyyətini yüksək qiymətləndirib və teleradio işçilərinə yeni yaradıcılıq uğurları, tükənməz enerji və fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Milli mətbuat və mədəniyyət tariximizin iki mühüm hadisəsi

Azərbaycan mətbuatı və mədəniyyəti bugünkü yüksək səviyyəyə çatanadək müxtəlif inkişaf mərhələlərindən keçib. Hər dövr də mətbuatımızda və mədəniyyətimizdə öz izlərini qoyub. Prezident İlham Əliyev məktubunda Azərbaycan radiosunun yaranmasını milli mətbuat və mədəniyyət tariximizin mühüm hadisələrindən biri kimi dəyərləndirib. "1926-cı il noyabrın 6-da ilk dəfə efirə çıxan Azərbaycan radiosu ötən əsr ərzində xalqımızın ictimai-siyasi, mədəni və mənəvi həyatının ayrılmaz hissəsinə çevrildi. Radio uzun illər insanların əsas informasiya mənbəyi olmaqla yanaşı, milli musiqimizin, ədəbiyyatımızın, dilimizin və mənəvi dəyərlərimizin qorunub yaşadılmasına mühüm töhfələr verdi", - deyə dövlətimizin başçısı bildirib.

Məhz Azərbaycan radiosunun ilk dəfə efirə çıxdığı gün ölkəmizdə Azərbaycan Televiziyası və Radiosu Günü olaraq televiziya və radio işçilərinin peşə bayramı kimi qeyd olunur. Çox doğru olaraq Azərbaycan radiosu həm də xalqımızın bir əsrlik canlı audioarxivi kimi qiymətləndirilir. Ötən dövrdə hər evin, necə deyərlər, gözlənilən qonağına çevrilən sevimli radiomuz bir-birindən rəngarəng verilişlərlə milyonlarla dinləyicisi ilə həmsöhbət olub. Müxtəlif nəsillərin təmsilçiləri məhz Azərbaycan radiosunun təsiri ilə milli-mənəvi dəyərlərimizi əxz edib, özlərinin musiqi zövqünü formalaşdırıblaar. Xüsusilə də Azərbaycan radiosunun "Sabahınız xeyir", "Axşam görüşləri", "Bulaq", "Vətən", "Natəvan" qızlar klubu, "Lirika dəftərindən", "Muğam saatı", "Arzu" musiqi poçtu, "Yazıçı və zaman", "Mahnı şəhəri gəzir", "Teatr mikrofon qarşısında", "Ana dili", "Körpü", "Ovqat", "Elin sazı, elin sözü", "Açıq-aşkar", "Xudafərin", "Sözün düzü", "Baxış bucağı", "Dünya", "Pillə", "Çevrə", "Radio-atmaca", "Molla Nəsrəddin", "Yol", "Yuva", "Vaxt", "Dan yeri" kimi dinləyicilərin ruhunu oxşayan verilişləri radio tariximizə əbədi həkk olunub. Onların bəziləri fəaliyyətini çoxdan dayandırsa da, hələ də yaddaşlarda yaşayır.

Sonrakı mərhələdə isə Azərbaycan televiziyası mətbuat və mədəniyyət tariximizə daxil olub. Azərbaycan televiziyası Şərqin ilk televiziyası olaraq 1956-cı ildən fəaliyyət göstərir. 1956-cı il fevralın 14-də Azərbaycan televiziyası mərhum sənətkar Nəcibə Məlikovanın "Göstərir Bakı!" sözləri ilə ağqara təsvirdə tamaşaçılarla görüşə gəlib. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. Əvvəllər yayım yalnız Bakı və Sumqayıtı əhatə edib. Bir il sonra televiziyanın əhatə dairəsi genişlənərək Azərbaycanın digər rayon və şəhərlərində də yayımlanıb. 1957-ci ildən Azərbaycan televiziyası həftədə beş dəfə efirə çıxıb və yalnız 1962-ci ildə gündəlik yayıma başlayıb. İldən-ilə təkmilləşən milli televiziyamız 2005-ci ilin yanvarından 24 saatlıq fasiləsiz yayıma keçib. Ölkə ərazisində analoq TV yayımı 20 dekabr 2016-cı il tarixində dayandırılıb və rəqəmsal TV yayımına keçid tam başa çatdırılıb.

Hazırda Azərbaycanda kifayət qədər müasir texnologiyalarla təmin olunmuş və dünyanın qabaqcıl teleradio kampaniyaları ilə rəqabət aparmaq qabiliyyətinə malik müstəqil teleradio şirkətləri fəaliyyət göstərir. 2020-ci il dekabrın 31-dən etibarən işğaldan azad olunan ərazilərdə radio və televiziya yayımlarının bərpası istiqamətində işlər davam etdirilir. Artıq respublika üzrə yayımı həyata keçirilən "AzTV", "Mədəniyyət" , "İdman Azərbaycan", "İctimai", "CBC", "CBC Sport", "Real", "Xəzər", "Azad Azərbaycan" və "ARB-24" telekanalları Şuşa, Xankəndi şəhərləri və Xocalı, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələrinə yayımlanır. "Azərbaycan televiziyasının fəaliyyətə başlaması ilə informasiya məkanımızda yeni mərhələnin əsası qoyuldu. Televiziya cəmiyyətin maariflənməsində, milli-mədəni irsimizin təbliğində, ictimai rəyin formalaşmasında və ölkəmizdə baş verən mühüm hadisələrin geniş auditoriyaya çatdırılmasında xüsusi rol oynadı və oynamaqdadır. Radio və televiziya bu gün də dövlətçilik ənənələrimizin, milli kimliyimizin və Azərbaycan həqiqətlərinin təbliği, həmçinin ölkəmizə qarşı ideoloji hücumların qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır", - deyə Prezident İlham Əliyev bildirib.

Ulu Öndərin diqqət və qayğısı Azərbaycan teleradiosunun inkişafında xüsusi yer tutur

Məmnunluq hissi ilə qeyd edə bilərik ki, Azərbaycan radiosu və televiziyası zamanın dəyişən tələblərinə, yeni çağırışlara məharətlə cavab verməkiqtidarındadır. Buna həm güclü kadr potensialı, həm də müasir maddi-texniki təchizat imkan verir. Azərbaycan teleradiosunun hazırkı yüksək səviyyəyə çatmasında Ulu Öndər Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Bu xüsusda fikirlərini ifadə edən Prezident İlham Əliyev bildirib: "Ümummilli Lider Heydər Əliyevin Azərbaycan teleradiosuna göstərdiyi diqqət və qayğı bu sahənin inkişafında xüsusi yer tutur. Onun rəhbərliyi və dəstəyi ilə milli televiziya və radio yayımının maddi-texniki bazasının möhkəmləndirilməsi, yaradıcı potensialının artırılması, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atılıb. Heydər Əliyev teleradionu xalqla dövlət arasında mühüm əlaqə vasitəsi, milli birliyin və ideoloji bütövlüyün qorunmasında təsirli platforma kimi qiymətləndirirdi".

Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi birinci dönəmdə respublikamızda teleradionun maddi-texniki bazasının möhkəmlənməsini, yayım arealının genişləndirilməsini daim qiqqət mərkəzində saxlayıb Məhz Onun güclü dəstəyinin nəticəsi olaraq 1985-ci ildə Azərbaycan televiziyası texniki təchizatına, film istehsalı və müxtəlif proqramlarla keçmiş ittifaqın mərkəzi televiziyasındakı çıxışlarına görə SSRİ miqyasında 4-cü yerə çıxmışdı.

Ümummilli Lider Heydər Əliyev ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə gələndən sonra da teleradionun inkişafına xüsusi həssaslıqla yanaşıb. Respublikamızda müasir Teleqüllə Kompleksinin yaradılması da Ulu Öndərin müstəsna səyləri sayəsində mümkün olub. 1956-cı ildə istismara verilmiş ilk Televiziya qülləsi sonradan yeni texnoloji tələblərə uyğun gəlmədiyi üçün keyfiyyətli radio-televiziya yayımının təşkilində çətinliklər yaradırdı. Bu səbəbdən Bakı Teleqüllə Kompleksi layihələndirilərək 1981-ci ildə tikintisinə başlanılıb. Layihəyə əsasən, tikinti işləri 1985-ci ildə başa çatdırılmalı idi. Lakin keçmiş SSRİ-ni əhatə edən maliyyə böhranı, sonda SSRİ-nin dağılması və digər müxtəlif səbəblərdən tikinti işləri yarımçıq qalıb. Ölkəmiz müstəqillik qazandıqdan sonra Ümummilli Lider Heydər Əliyevin müvafiq göstərişləri əsasında tikinti işləri başa çatdırılıb. Bakı Teleqüllə Kompleksi Ulu Öndərin özünün iştirakı ilə 13 avqust 1996-cı ildə istifadəyə verilib. Kompleks Azərbaycanda ən hündür tikilidir və dünyada olan teleqüllələr arasında hündürlüyünə görə 34-cü yerdədir.

Mübariz ABDULLAYEV

Azərbaycan-Böyük Britaniya strateji tərəfdaşlığı...

İqtisadi inkişafdan innovasiyaya uzanan yeni əməkdaşlıq mərhələsi

II yazı

Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsi, müxtəlif coğrafiyaları əhatə edən tərəfdaşlıq əlaqələrinin genişlənməsi ölkəmizin xarici siyasət strategiyasının mühüm nəticələrindəndir. Təsadüfi deyil ki, ölkəmiz 4 ölkə ilə müttəfiq olmaqla yanaşı, 20-dən yuxarı dövlətlə bu və ya digər şəkildə strateji tərəfdaşlıq əlaqələrinə malikdir.

Azərbaycanın xarici siyasətində hər zaman Böyük Britaniya ilə münasibətlər xüsusi yer tutur. Tarixi ənənələrə, qarşılıqlı maraqlara və uzunmüddətli əməkdaşlıq təcrübəsinə söykənən Azərbaycan-Böyük Britaniya əlaqələri artıq yeni məzmun və keyfiyyət mərhələsinə qədəm qoyub. Dublində iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə münasibətlərin yalnız mövcud istiqamətlər üzrə davam etdirilməsini deyil, həm də gələcək inkişafın yeni prioritetlərinin müəyyənləşdirilməsini nəzərdə tutur. Sənədin müdafiə və təhlükəsizliklə yanaşı iqtisadiyyat, ticarət, investisiya, təhsil və innovasiya kimi sahələri də əhatə etməsi tərəfdaşlığın çoxşaxəli xarakterini nümayiş etdirir. Bu, Azərbaycanın iqtisadi potensialına, əlverişli investisiya mühitinə, beynəlxalq nəqliyyat-kommunikasiya imkanlarına və intellektual resurslarına göstərilən marağın ifadəsidir. Eyni zamanda, əməkdaşlığın yeni istiqamətləri Azərbaycanın müasir milli inkişaf strategiyasının hədəfləri ilə də uzlaşır. Çünki müasir dövrdə dövlətlərin gücü yalnız siyasi və hərbi imkanlarla deyil, iqtisadi rəqabət qabiliyyəti, texnoloji yeniliklərə çıxış, insan kapitalı və qlobal iqtisadi əlaqələrdə tutduğu mövqe ilə ölçülür. Bu baxımdan imzalanan Birgə Bəyannamə Azərbaycan-Böyük Britaniya münasibətlərinin gələcək inkişafına xidmət edən mühüm siyasi-iqtisadi yol xəritəsi kimi dəyərləndirilməlidir.

Yeni perspektivlər: qarşılıqlı iqtisadi fayda...

Vurğulandığı kimi, Azərbaycan-Böyük Britaniya münasibətlərinin yeni mərhələsində iqtisadi əməkdaşlığın daha geniş məzmun alması xüsusi əhəmiyyət daşıyır. İki ölkə arasında əlaqələrin inkişafı üçün formalaşmış siyasi etimadın iqtisadi müstəvidə konkret nəticələrə çevrilməsi tərəfdaşlığın dayanıqlığını artıran əsas amillərdəndir. Böyük Britaniyanın beynəlxalq maliyyə və biznes mühitindəki mövqeyi, Azərbaycanın isə regionun mühüm iqtisadi və logistika mərkəzlərindən birinə çevrilməsi qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar yaradır. Bəyannamədə iqtisadi münasibətlərin fəlsəfəsini ifadə edən mühüm məqamlardan biri "hər iki iqtisadiyyatda iş yerləri, bacarıqlar və dəyər yaradan biznesləraraşı əlaqələrin" təşviqidir. Bu yanaşma əməkdaşlığın yalnız ticarət dövriyyəsinin artırılması ilə məhdudlaşmadığını, real iqtisadi dəyərin yaradılmasına istiqamətləndiyini göstərir. Xüsusilə investisiyaların qeyri-neft sektoruna, infrastruktur layihələrinə, xidmət sahələrinə və yeni iqtisadi fəaliyyət istiqamətlərinə yönəldilməsi Azərbaycanın iqtisadi şaxələndirmə siyasətinə əlavə imkanlar qazandıra bilər.

Paralel olaraq sənəddə Orta Dəhlizin inkişafına verilən dəstək ayrıca strateji məna daşıyır. Bəyannamədə "regional və beynəlxalq bağlantıların vacibliyi"nin vurğulanması Azərbaycanın Avropa ilə Asiya arasında nəqliyyat-logistika qovşağı kimi artan rolunun siyasi və iqtisadi baxımdan diqqət mərkəzində olmasını göstərilir. Bu gün qlobal təchizat zəncirlərinin yenidən qurulduğu, alternativ marşrutların əhəmiyyətinin artdığı şəraitdə Azərbaycan öz coğrafi mövqeyini iqtisadi üstünlüyə çevirməyi bacaran ölkələrdəndir. Şərq-Qərb nəqliyyat bağlantılarının genişlənməsi Böyük Britaniya biznes dairələri üçün də yeni imkanlar açа bilər. Eyni zamanda, enerji əməkdaşlığının ənənəvi istiqamətlərdən kənara çıxaraq yaşıl iqtisadiyyatı əhatə etməsi münasibətlərə yeni dinamika verir. Bu mənada yaşıl maliyyələşdirmə və aşağıkarbonlu texnologiyalar üzrə əməkdaşlıq Azərbaycanın enerji keçidi strategiyası ilə uzlaşır. Beləliklə, iqtisadi tərəfdaşlıq qarşılıqlı maraqların uzlaşdırılması ilə yanaşı, Azərbaycanın regional iqtisadi gücünün möhkəmlənməsinə də xidmət edir.



Davamlı əməkdaşlıq: Bəyannamənin siyasi əhəmiyyəti...

İki dövlət arasında imzalanan strateji sənədlərin əhəmiyyəti yalnız orada əksini tapan niyyət və prinsiplərlə ölçülmür. Əsas məsələ müəyyənləşdirilmiş hədəflərin ardıcıl şəkildə həyata keçirilməsi, əldə olunan nəticələrin qiymətləndirilməsi və əməkdaşlığın yeni çağırışlara uyğun inkişaf etdirilməsidir. Azərbaycan və Böyük Britaniya arasında imzalanmış Birgə Bəyannamənin yekun müddəalarında məhz bu məqama xüsusi diqqət yetirilməsi sənədin praktiki mahiyyətini gücləndirir. Tərəflərin illik Strateji Tərəfdaşlıq görüşləri keçirmək barədə razılığa gəlməsi əməkdaşlığın epizodik təmaslar deyil, davamlı siyasi dialoq və institusional mexanizmlər əsasında inkişaf etdirilməsinə xidmət göstərəcək. Bu görüşlər vasitəsilə üç əsas istiqamət üzrə görülən işlərin nəzərdən keçirilməsi, yeni prioritetlərin müəyyənləşdirilməsi və gələcək fəaliyyətin əlaqələndirilməsi mümkün olacaq.

Burada diqqətçəkən məqamlardan biri də Birgə Hökumətlərarası Komissiyanın roluna verilən əhəmiyyətdir. Bu mexanizm iqtisadi və ticarət münasibətlərinin genişləndirilməsi ilə yanaşı, siyasi razılaşmaların konkret layihələrə çevrilməsi baxımından mühüm platformadır. İnvestisiya, enerji, iqtisadi şaxələndirmə və Orta Dəhliz üzrə təşəbbüslərin əlaqələndirilməsi tərəfdaşlığın nəticəyönümlü xarakterini gücləndirə bilər. Eyni zamanda, sənəddə əməkdaşlığın "İştirakçıların müvafiq qanun və qaydalarına uyğun" həyata keçirilməsinin nəzərdə tutulması dövlətlərin suveren hüquqlarına, milli qanunvericiliyinə və institusional səlahiyyətlərinə hörmət prinsipini təsdiqləyir. Bu, qarşılıqlı münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq əsasında qurulduğunu göstərən mühüm yanaşmadır.

Beləliklə, Azərbaycan-Böyük Britaniya Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməsi ölkələrimiz arasındakı münasibətlərin gələcək inkişafı üçün geniş siyasi və iqtisadi çərçivə formalaşdırır. Sənədin əhatə etdiyi istiqamətlər Azərbaycanın milli maraqları, iqtisadi modernləşmə hədəfləri və beynəlxalq mövqelərinin möhkəmləndirilməsi ilə uzlaşır. Ən başlıcası, bu tərəfdaşlıq Azərbaycanın müstəqil xarici siyasət kursunun, müxtəlif qlobal güc mərkəzləri ilə qarşılıqlı faydaya əsaslanan əlaqələr qurmaq imkanlarının növbəti ifadəsidir. Beləliklə, Bakı ilə London arasında münasibətlər yeni əməkdaşlıq mərhələsinə qədəm qoyur və bu mərhələ qarşılıqlı etimadın konkret nəticələrlə möhkəmləndirilməsinə xidmət edir.

P.İSMAYILOV

Təhsil və innovasiya: gələcəyə yönələn strateji investisiya

Müasir dünyada iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi kimi bilik, texnologiya, elmi potensial və peşəkar insan kapitalı çıxış edir. Bu amil həm də dövlətlərin beynəlxalq rəqabət qabiliyyətini müəyyənləşdirən başlıca ştrixə çevrilib. Mövcud reallıqda Azərbaycan-Böyük Britaniya Strateji Tərəfdaşlıq Bəyannaməsində təhsil və innovasiyaya xüsusi yer ayrılması sənədin uzunmüddətli əməkdaşlıq perspektivindən xəbər verir. Sənəddə təhsil, elm və tədqiqatın uzunmüddətli rifahın, məhsuldarlığın və sosial dayanıqlığın vacib amilləri kimi təqdim olunması məsələyə strateji yanaşmanın göstəricisidir. Əslində, bu, iki ölkənin gələcək əməkdaşlığını bugünkü iqtisadi münasibətlərlə məhdudlaşdırmamaq, gələcək nəsillərin bilik və bacarıqları üzərində qurmaq niyyətini ifadə edir.

Böyük Britaniyanın ali təhsil, elmi tədqiqat və innovasiya sahəsində zəngin təcrübəsi Azərbaycanın insan kapitalının inkişafı baxımından əhəmiyyətli perspektivlər yaradır. Universitetlər, elmi-tədqiqat institutları və sənaye müəssisələri arasında əlaqələrin genişləndirilməsi yeni biliklərin mənimsənilməsinə, müasir texnologiyaların tətbiqinə və yerli mütəxəssislərin beynəlxalq təcrübə qazanmasına şərait yarada bilər. Xüsusilə peşə təhsili, rəqəmsal bacarıqlar və texniki ixtisaslar üzrə əməkdaşlıq əmək bazarının dəyişən tələblərinə uyğun kadr hazırlığına töhfə verəcək. Bəyannamədə süni intellekt, rəqəmsal idarəetmə və innovasiya mühiti üzrə təcrübə mübadiləsinin nəzərdə tutulması da təsadüfi deyil. Çünki süni intellekt və rəqəmsallaşma dövlət idarəçiliyindən sənayeyə, iqtisadiyyatdan sosial xidmətlərə qədər bütün sahələrin inkişaf modelini dəyişir. Azərbaycan üçün bu istiqamətlərdə qabaqcıl təcrübənin öyrənilməsi texnoloji asılılığın azaldılması, yerli innovasiya ekosisteminin gücləndirilməsi və yeni iqtisadi imkanların yaradılması baxımından vacibdir. Digər tərəfdən, insanlararası mübadilələrin və peşəkar şəbəkələrin təşviqi cəmiyyətlər arasında qarşılıqlı etimadı möhkəmləndirir. Beləliklə, təhsil və innovasiya əməkdaşlığı iki dövlətin gələcək inkişafına yönəlmiş uzunmüddətli strateji sərmayə xarakteri daşıyır.

Azərbaycanın Avropada mövqeyini gücləndirən amillər

Ölkəmiz Aİ-nin enerji, nəqliyyat, rəqəmsal bağlantılara çıxışında təminatçı və əlaqələndirici rol oynayır

Azərbaycanın enerji və nəqliyyat sahəsində yaratdığı strateji imkanlar ölkəmizin beynəlxalq siyasi çəkisinin mühüm dayaqlarındandır.Cənub Qaz Dəhlizi, Orta Dəhliz və Xəzər üzərindən inkişaf etdirilən yeni bağlantılar Azərbaycanın Avropa ilə Asiya arasında iqtisadi əlaqələrdə rolunu genişləndirir. Dublin Sammitinin əsas müzakirə mövzuları sırasında enerji təchizatı və bağlantıların yer alması Azərbaycanın artıq konkret layihələr həyata keçirdiyi bu istiqamətlərin Avropa üçün strateji əhəmiyyət daşıdığını göstərir.

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan nəqliyyat və logistika dəhlizlərini şaxələndirərək Avropa ilə Asiya arasında təhlükəsiz tranzit marşrutlarını təmin edir ki, bu da əmtəə mübadiləsinin böyüməsinə təsir edir. Regional nəqliyyat xəritəsinin formalaşmasında və beynəlxalq logistik qovşaqların yaradılmasında Azərbaycan həlledici rol oynayaraq yerli istehsalın Avropa bazarlarına çıxış imkanlarını genişləndirir.

Qaz nəqlində uzunmüddətli əməkdaşlıq planları

2022-ci ildə Azərbaycanla AB arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalandı. bu gün Azərbaycan 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə qaz ixrac edir və bu coğrafiya genişlənməkdədir. Bu, sadiq tərəfdaşlığın və dayanıqlı təchizat zəncirini yaratdığına görə, Avropa Komissiyası Azərbaycanı Pan-Avropa enerji təchizatçısı adlandırır. Hazırda boru kəmərləri vasitəsilə qaz ixracının coğrafi əhatəsinə görə, Azərbaycan dünyada birinci yerdədir.

TAP ailəsi Azərbaycanın yaxın illərdə qaz istehsalı və nəqlinin artmasını nəzərə alaraq Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun genişləndirilməsini, yeni birləşdirici və paylayıcı innektorların yaradılmasını müzakirə edir. Bu təminatların öz həllini tapması sayəsində 2028-2030-cu illərdə Azərbaycanın Avropa regionuna qaz ixracı daha da artaraq 15-16 milyard kubmetrə çatacaq.

Enerji gündəliyinin yeni səhifəsi - "Yaşıl enerji" dəhlizi

Azərbaycanın Avropa ilə bağlantılarının müasir modellərindən biri də bərpaolunan enerji sahəsində əməkdaşlıqdır. Tərəflər arasında "yaşıl enerji" sahəsində əlaqələr də son illərdə mühüm mərhələyə daxil olub. 2022-ci ildə Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan" arasında imzalanmış sazişə əsasən, "yaşıl enerji" dəhlizinin qurulması haqqında anlaşma əldə olunub. Sənəd təmiz elektrik enerjisinin ötürülməsi və təchizatı üzrə əməkdaşlığı, təhlükəsiz və fasiləsiz ötürmə üçün zəruri şərtlərin müəyyənləşdirilməsini, eləcə də layihə çərçivəsində fiber-optik rabitənin təkmilləşdirilməsini nəzərdə tutur. Bununla da, "Yaşıl Enerji Dəhlizi"nin əsası qoyulub.

Layihəyə əsasən, Xəzər dənizinin külək enerjisi potensialı, günəş enerjisi layihələri, Mərkəzi Asiya ilə "yaşıl enerji" xətləri birləşdiriləcək, Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi Avropa bazarları ilə əlaqələri təmin edəcək. Beləliklə, "Yaşıl Enerji Dəhlizi" ölkəmizin bərpaolunan enerji mənbələrindən istehsal edilən elektrik enerjisinin Türkiyə və Avropa bazarlarına ixracına, tərəfdaş ölkələrin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və ölkəmizin regionlararası elektrik enerjisi qovşağına çevrilməsinə töhfə verəcək.



Orta Dəhlizdə ortaq maraqlar

Azərbaycan nəqliyyat və logistika sahəsində də şaxələndirilmiş infrastrukturları təmin edərək Avropa ilə Asiya arasında mühüm tranzit mərkəzi kimi əhəmiyyətini artırmaqdadır.Bu baxımdan, Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa ölkələrini əhatə edən "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" (Orta Dəhliz) ən etibarlı və dayanqılı nəqliyyat arteriyası hesab olunur. Bu marşrutun inkişaf etdirilməsi Aİ ölkələrinə təkcə yükdaşıma potensialının genişləndirilməsi baxımından deyil, həm də regional iqtisadi əlaqələrin gücləndirilməsi və yeni bazarlara çıxış üçün də mühüm əhəmiyyət daşıyır. Gələcəkdə TRİPP layihəsi çərçivəsində Zəngəzur xəttinin Orta Dəhlizə inteqrasiya olunması isə regionda daha geniş daşınma zəncirlərini və resurs axınlarını təmin edəcək.

Yeri gəlmişkən, Avropa İttifaqının "Global Gateway" təşəbbüsü çərçivəsində Mərkəzi Asiya-Avropa İttifaqı regionu üçün 12 milyard avro investisiya elan edilib ki, onun 3 milyard avrosu Orta Dəhliz üçün nəzərdə tutulub. Aİ Azərbaycanda nəqliyyat infrastrukturlarının modernləşdirilməsinə, o cümlədən Naxçıvan dəmir yolu və Bakı Limanı da daxil olmaqla mümkün layihələrə böyükhəcmli qrant ayrılacağını açıqlayıb. "Global Gateway" investisiya paketi çərçivəsində Cənubi Qafqazda dövlət və özəl sektorun iştirakı ilə infrastruktur layihələrinə 2 milyard avroyadək sərmayənin cəlb edilməsi planlaşdırılır.

Ümumilikdə, Aİ davamlı şəkildə Mərkəzi Asiya-Xəzər-Cənubi Qafqaz əlaqələrinin gücləndirilməsini, Aİ-nin koordinasiyasını və səylərini artırmağı planlaşdırır.

Transxəzər Fiber-Optik Kabel Xətti - Aİ üçün rəqəmsal imkanlar

Azərbaycan və Avropa arasında bağlantı yaradacaq ən perspektivli layihələrdən biri də Transxəzər Fiber-Optik Kabel Xəttidir. Ötən ay Qazaxıstan və Azərbaycan hökumətləri tərəfindən istifadəyə verilən bu layihə çoxistiqamətli olmaqla, Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropanın rəqəmsal bağlantısını nəzərdə tutur. Belə ki, fiber-optik kabel "Rəqəmsal İpək Yolu" marşrutları ilə əlaqələndirilərək Asiya-Xəzər-Avropa rəqəmsal dəhlizini formalaşdıracaq.

Transxəzər Fiber Optik Kabel Xətti layihəsinin Orta Dəhliz təşəbbüsünə və "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu" (TRIPP) təşəbbüsünə daxil edilməsi də müzakirə olunur. Layihənin reallaşmasında maraqlı tərəf olan beynəlxalq şirkətlər qrupu "NEQSOL Holding"in nümayəndəsi Kirill Rubinski bildirib ki, birgə layihələrin inkişaf perspektivləri böyükdür və beynəlxalq telekommunikasiya şirkətləri bu təşəbbüsü dəstəkləyir.

E.CƏFƏRLİ



Milli Məclisin iclasında...

2027-ci ilin büdcə zərfinə daxil olan qanun layihələri müzakirəyə çıxarılıb

Noyabrın 16-da Milli Məclisin növbəti iclası keçirilib. İclasda 2027-ci ilin büdcə zərfinə daxil olan qanun layihələri müzakirəyə çıxarılıb. Baş nazir Əli Əsədov və hökumət üzvləri iclasda iştirak ediblər.

Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyası ötən dövrdə ölkə iqtisadiyyatının dayanıqlılığını qorumağa imkan verib. Onun sözlərinə görə, ilin mühüm yekunlarından biri Böyük Qayıdışın davam etməsidir. Yaşayış məskənləri və infrastruktur bərpa edildikcə doğma yurduna qayıdan ailələrin sayı da artır. Sosial sahəyə də böyük diqqət yetirilir, insanların rifah halının daha da yaxşılaşdırılması, əhalinin gəlirlərinin artırılması üçün lazımi tədbirlər görülür. Bu il əldə edilən nəticələr 2027-ci ilin büdcəsinin formalaşdırılması üçün əlverişli ilkin şərtləri təmin edib.

Büdcənin gəlirləri 39 milyard 254 milyon manat, xərcləri isə 42,4 milyard manat proqnozlaşdırılır

S.Qafarova qeyd edib ki, gələn il büdcə xərclərinin prioritetləri arasında iqtisadi artımın dəstəklənməsi və əhalinin sosial müdafiəsinin, xüsusən həssas təbəqələrinin sosial təminatının daha da gücləndirilməsi əsas yer tutur. Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, sərhədlərin toxunulmazlığının təmin edilməsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, hərbçilərin xidmət şəraitinin və sosial təminatının yaxşılaşdırılması yenə də diqqət mərkəzində olacaq. İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və bərpa olunması, habelə əhalinin doğma yurdlarına qaytarılması davam etdiriləcək. "Gələn il üçün dövlət büdcəsinin gəlirləri 39 milyard 254 milyon manat məbləğində proqnozlaşdırılıb. Bu, cari ilin proqnozu ilə müqayisədə 645 milyon manat çoxdur. Dövlət büdcəsinin xərcləri isə 42,4 milyard manat olacaq. Bu da cari illə müqayisədə təqribən 696 milyon manat çoxdur" - deyə, spiker vurğulayıb.

İclasda maliyyə naziri Sahil Babayev 2027-ci il dövlət büdcəsinin layihəsi barədə geniş məlumat verib. Nazir qeyd edib ki, ölkə başçısının rəhbərliyi ilə ölkəmizin sosial-iqtisadi inkişafı bütün istiqamətlər üzrə təmin edilir. Azərbaycan qüdrətli, iqtisadi cəhətdən daha inkişaf etmiş, sosial cəhətdən əhalinin rifahını daha yaxşı təmin edən dövlətə çevrilir. Həyata keçirilən bu struktur, institusional, iqtisadi, sosial islahatların çərçivəsi növbəti dövr üçün də həm dövlət büdcəsində, həm də ortamüddətli xərclər çərçivəsində nəzərdə tutulub.

Nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə 2027-ci il üzrə hazırlanmış büdcə siyasətinin əsas prinsiplərinin dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin qorunması, əhalinin rifahı və sosial tədbirlərin tam maliyyələşdirilməsi, müdafiə qabiliyyətinin və təhlükəsizliyin təminatının gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, rəqəmsal texnologiyalar və innovasiyaların tətbiqinin genişləndirilməsi, təhsil və səhiyyə sektorlarının inkişafının dəstəklənməsi, fiskal intizam qorunmaqla büdcə qaydasına əməl edilməsi, büdcə xərclərinin Dövlət Xəzinədarlığı vasitəsilə ünvanlı və səmərəli icra edilməsi, real sektorun inkişafının daha da sürətləndirilməsi olduğunu bildirib.

Çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, dövlət xərclərinin optimallaşdırılması şəraitində növbəti dövrlərdə iqtisadi artım özəl sektora və özəl investisiyalara söykənəcək. Bu kontekstdə dövlətin iqtisadiyyatdakı başlıca rolu birbaşa investor funksiyasından əlverişli şərait yaradan və riskləri bölüşən tərəfdaş funksiyasına keçir. Onun sözlərinə görə, bu keçidin ilkin nəticələri artıq müşahidə olunur: "Cari ilin 10 ayında qeyri-neft-qaz sektorunda özəl investisiyalar 18 faizədək artıb. Bu meylin davamlı olması üçün iqtisadi artımın yeni mənbələrinin işə salınması tələb olunur. Bu baxımdan daxili tələbin struktur transformasiyasının önəmi qeyd edilməlidir. Dövlət hər il əhəmiyyətli həcmdə mal və xidmət satın alır və bu alışların bir hissəsi idxal hesabına təmin olunur. Yerli istehsalı mövcud olan və ya yaradıla bilən məhsullar üzrə dövlət satınalmalarının yerli istehsala yönəldilməsi mühüm əhəmiyyət kəsb edir. Əczaçılıq və rəqəmsal həllər bu baxımdan bariz nümunədir: bu sahələr üzrə alışlar yerli istehsalçılar üçün sabit bazar formalaşdırmağa başlayıb. Bu istiqamətdə müvafiq tədbirlər görülür. Dövlət sifarişlərinin mövcud yerli istehsala yönləndirilməsi və perspektivdə iri dövlət satınalmalarının müəyyən hissəsinin ölkə daxilində istehsalının lokalizasiyası mexanizmi üzərində işlər gedir".

Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov isə çıxışında qeyd edib ki, qlobal iqtisadi şəraitdə olan çağırışlara baxmayaraq, ölkəmizdə iqtisadi artım davam edib. Cari ilin 10 ayının nəticələrinə əsasən, iqtisadi artım 1,7 faiz təşkil edib. Qeyri-neft ümumi daxili məhsulun artımı isə 2,9 faiz səviyyəsində formalaşıb. Onun sözlərinə görə, Mərkəzi Bankın oktyabr proqnozlarına əsasən, 2027-ci ilin sonunda ümumi daxili məhsulun artımı 2,3 faiz, qeyri-neft ümumi daxili məhsulun artımı isə 4,3 faiz səviyyəsində olacağı gözlənilir.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2027-ci il dövlət büdcəsi layihəsinə dair palatanın rəyini səsləndirib. Bildirilib ki, qanunvericiliyə uyğun hazırlanmış qanun layihəsi maddələr üzrə təhlil edilib və bəzi maddələrin təkmilləşdirilməsinə ehtiyac olduğu qənaətinə gəlinib. V.Gülməmmədov büdcə zərfinin izahat hissəsində əvvəlki illərdən fərqli olaraq, fiskal risk anlayışının konkretləşdirildiyini, beynəlxalq təlimatlara uyğun olaraq risklərin təsirinin və başvermə ehtimalının da qiymətləndirildiyini söyləyib.

Qeyd edək ki, parlamentdə büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi noyabrın 18-dək davam edəcək.

Nardar BAYRAMLI

Valyuta ehtiyatlarımız 89,4 milyard dollara çatıb

2027-ci ilin əsas makroiqtisadi göstəriciləri ilə bağlı nəzərə çatdırılıb ki, növbəti ildə ümumi daxili məhsulun məbləği 141 milyard manat olaraq qiymətləndirilir. Qeyri-neft-qaz sektoru üzrə ümumi daxili məhsul 109,1 milyard manat proqnozlaşdırılır. Bu da 2026-cı ilə nisbətən 4,4 faizlik real artım deməkdir. Növbəti il üçün xam neftin bir barelinin orta illik qiyməti 65 dollar götürülüb. Orta illik inflyasiya 5,3 faiz proqnozlaşdırılır. Hazırda ümumi dövlət borcu 23,9 milyard manat təşkil edir və bu, cari ilin əvvəli ilə müqayisədə 2,8 faiz azdır. Borc portfelinin 16,2 milyard manatı daxili dövlət borcu, 7,7 milyard manatı isə xarici dövlət borcudur. Strateji valyuta ehtiyatları cari ilin 1 oktyabr tarixinə 89,4 milyard dollara çatıb və Dövlət Neft Fondunun gəlirləri növbəti ildə 7,8 milyard dollar, xərcləri isə 7,1 milyard dollar, Neft Fondunun transferti 7 milyard dollar olaraq proqnozlaşdırılır.

Qeyd edilib ki, büdcə siyasətinin əsas istiqamətlərindən biri neftdən asılılığın daha da azaldılmasıdır. Bu məqsədlə Azərbaycan hökuməti tərəfindən ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Növbəti ildə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbətinin 17,1 faiz olacağı, icmal büdcədə qeyri-neft gəlirlərinin payı isə 64,5 faizə çatacağı gözlənilir.

S.Babayev büdcə xərclərinin sosial-iqtisadi ehtiyaclarımıza uyğun olaraq tərtib edildiyini deyib. O bildirib ki, icmal büdcənin xərcləri qeyri-neft ümumi daxili məhsulun 46,2 faizi təşkil edəcək. Dövlət büdcəsinin 32,5 faizi əsaslı xərclərə yönəldiləcək. Təhsil və səhiyyə xərcləri də ümumi daxili məhsulun müvafiq olaraq 3,6 faiz və 1,5 faizinə çatacaq. Növbəti ildə aqrar sektora ayırmalar aqrar ümumi daxili məhsulun 15,8 faizinə çatacaq. Müdafiə və milli təhlükəsizlik sahəsinə isə 8 milyard 816,4 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bildirilib ki, növbəti ilin dövlət büdcəsində rayonların dotasiyadan asılılığı tam aradan qaldırılıb. Naxçıvana verilən dotasiya isə cari illə müqayisədə 13,6 milyon manat və ya 6,4 faiz azalacaq.

Daha sonra S.Babayev nəzərə çatdırıb ki, növbəti ildə icmal büdcənin gəlirləri 47,6 milyard manata çatacaq və bu 2026-cı illə müqayisədə 2,6 milyard manat və ya 5,9 faiz artım deməkdir. Gəlirlərin ümumi daxili məhsulda payı 33,8 faizə çatacaq, bu da 2026-cı illə müqayisədə 1,2 faiz çoxdur. İcmal büdcədə qeyri-neft gəlirlərinin payı 64,5 faizə çatacaq, bu da cari illə müqayisədə 1,5 faiz çoxdur.

Büdcə gəlirlərində 645 milyon manat artım olacaq

Qeyd edilib ki, dövlət büdcəsinin gəlirləri cari illə müqayisədə 645 milyon manat artımla proqnozlaşdırılır. Dövlət büdcəsinin gəlirlərinin 23,8 milyard manatı və ya 60,6 faizi qeyri-neft sektoru üzrə daxilolmaların, 15,5 milyard manatı və ya 39,4 faizi neft-qaz sektoru üzrə daxilolmaların payına düşür. Qeyri-neft sektoru üzrə daxilolmalar cari illə müqayisədə 1,6 milyard manat və ya 7,2 faiz artımla, neft-qaz sektoru üzrə daxilolmalar üzrə isə əksinə 955 milyon manat və ya 5,8 faiz az proqnozlaşdırılıb.

Neft-qaz sektoru üzrə azalmanın səbəbinə gəlincə, maliyyə naziri bildirib ki, bu, əsasən Dövlət Neft Fondundan transfertin 550 milyon dollar və ya 935 milyon manat azaldılması ilə bağlıdır. Qeyri-neft gəlirlərində artım hesabına 2027-ci ildə Fonddan dövlət büdcəsinə transfertin azaldılması makroiqtisadi sabitlik və inkişaf üçün güclü uzunmüddətli buffer yaratmağa imkan verir.

"Növbəti il üçün gəlirlərin 18,4 milyard manatı və ya 47 faizi Dövlət Vergi Xidməti vasitəsilə daxilolmaların payına düşür. Bu cari illə müqayisədə 1,5 milyard manat və ya 9 faiz çoxdur. Həmin daxilolmaların 14,9 milyard manatı qeyri-neft sektorundan, 3,6 milyard manatı isə neft-qaz sektorundan təmin ediləcək. Dövlət Gömrük Komitəsinin xətti ilə növbəti il dövlət büdcəsinə daxilolmalar isə təqribən 6.9 milyard manat və ya büdcə gəlirlərinin 17,5 faizi həcmində proqnozlaşdırılır. 2027-ci ildə Dövlət Neft Fondundan transfertin həcmi 11,9 milyard manat və ya büdcə gəlirlərinin 30,3 faizi həcmində olacaq. Büdcə gəlirlərinin 872 milyon manatı dövlət müəssisələrindən alınan dividendlərin, 949 milyon manatı ödənişli xidmətlər üzrə daxilolmaların, 484 milyon manatı sair gəlirlərin hesabına təmin ediləcək, dividendlər cari illə müqayisədə 45,3 faiz artacaq", - deyə maliyyə naziri bildirib.

Gələn il ÜDM artımı 2,3 faiz gözlənilir

Xalqı milli ideya ətrafında birləşdirən tarixi gün

Artıq üç onillikdən çoxdur ki, respublikamız müstəqillik yolu ilə inamla irəliləyərək yeni-yeni nailiyyətlərə imza atır. Hazırda müstəqil Azərbaycan bütün dünyada ləyaqətli, milli maraqlarını qətiyyətlə qoruyan, böyük hörmətə malik bir dövlət kimi tanınır. Üçrəngli bayrağımız ən mötəbər beynəlxalq təşkilatlarda, BMT-də əzəmətlə dalğalanır.

Lakin müstəqilliyə çatanadək xalqımız bir sıra çətinliklərdən keçib.

1988-ci il noyabrın 17-də müstəqillik tariximizin önəmli bir səhifəsi yazılıb. Həmin gün indiki Azadlıq meydanında keçrilən izdihamlı mitinq müstəqillik uğrunda mübarizənin başlanğıcı olub. Bu mübarizə 1991-ci ildə Azərbaycanın XX yüzillikdə ikinci dəfə müstəqilliyini bəyan etməsi ilə nəticələnib. Hər il ölkəmizdə 17 Noyabr - Milli Dirçəliş Günü böyük təntənə və qürur hissi ilə qeyd olunur.





Müstəqillik üçün Ulu Öndər Heydər Əliyevin yaratdığı iqtisadi, mədəni və ideoloji əsaslar

Müstəqillik çox şirin nemət olmaqla yanaşı, onu əldə etməyin və uzun müddət yaşatmağın şərtləri də bir o qədər çətindir. Burada ideoloji və iqtisadi əsaslar mühüm rola malikdir. Bu şərtlər təmin edilmədən hansısa bir xalqın, ölkənin real müstəqilliyindən bəhs etmək mümkün deyil. Bu halda müstəqillik formal səciyyə daşıyır. Bunu ayrı-ayrı ölkələrin təcrübəsi də təsdiqləyir. İqtisadiyyatını inkişaf etdirmək qüdrətində olmayan dövlətlər çox qısa bir müddətdə forposta çevrilir, beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşür və müstəqil siyasi qərarlar qəbul edə bilmirlər.

Azərbaycanın müstəqilliyi isə real səciyyə daşıyır. Ölkəmizin müstəqilliyi üçün zəruri olan fundamental əsasları xalqımızın müdrik oğlu, böyük siyasətçi Heydər Əliyev yaradıb. Onun respublikamıza rəhbərliyi iki fərqli ideoloji formasiyaya təsadüf edir. Onlardan biri sərt qadağaların, milli məhdudiyyətlərin hökm sürdüyü keçmiş sovet dönəmi, digəri isə müstəqilliyimizin ilk illəridir. Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi onda idi ki, O, hər iki dönəmdə Azərbaycanın müstəqilliyi naminə böyük işlər görməyi bacarmışdır. Birinci mərhələdə Heydər Əliyev keçmiş sovet dönəminin sərt qadağalarına baxmayaraq, xalqımızın özünüdərk hissinin güclənməsi üçün məqsədyönlü fəaliyyət həyata keçirib. O, 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək azərbaycanlı gəncin yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına nail olub. Həmin kadrlar sonradan müstəqil Azərbaycanın idarə olunmasında fəal iştirak edəcəkdilər. Heydər Əliyev keçmiş ittifaqdakı nüfuzundan istifadə edərək bir sıra iqtisadi layihələrin məhz respublikamızda reallaşdırılmasını təmin edib. Bunlar isə gələcək müstəqil Azərbaycan üçün güclü iqtisadi dayaqlar idi.

Böyük Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edib. Bu sırada Onun milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Uzaqgörən siyasətçi Heydər Əliyevin səpdiyi toxumlar ötən əsrin səksəninci illərinin sonlarından etibarən cücərməyə başladı. Onun zamanında məqsədyönlü şəkildə yaratdığı zəngin irs sonralar müstəqil Azərbaycanın iqtisadi, mədəni və ideoloji əsaslarına çevrildi.

İş elə gətirdi ki, sonradan Azərbaycanın 1991-ci ildə qazandığı müstəqilliyinin qorunması missiyasini da Heydər Əliyev yerinə yetirdi. 1993-cü ilin yayında müstəqilliyimizin əldən getməsi təhlükəsi tam real idi. Belə çətin şəraitdə xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıdan Heydər Əliyev atdığı qətiyyətli addımlarla müstəqilliyimizi qorumağa və hadisələri müsbət məcraya yönəltməyə nail oldu.

Azadlıq meydanında başlayan ümumxalq hərəkatı

Sərt qadağalarla, süni təbliğatla idarə olunan keçmiş ittifaqın nə vaxtsa süqutu labüd idi. Onilliklər boyunca gizli gedən bu proses ötən əsrin sonlarına doğru müəyyən formalarda açıq şəkildə təzahür etməyə başladı. Milli ideyaları əxz edən, özünəinam hissi artan Azərbaycan xalqı bəhs olunan dövrdə böyük bir imperiyada başlayan proseslərin aktiv iştirakçıları sırasında yer alırdı. Azərbaycanda milli-azadlıq hərəkatı Ermənistanın respublikamıza qarşı ərazi iddiaları fonunda açıq müstəviyə keçdi. 1988-ci ilin əvvəlindən etibarən Ermənistanın Azərbaycana qarşı təcavüzü başlandı. Moskvanın, xüsusən də SSRİ-nin o dövrdəki rəhbəri M.Qorbaçoevin buna loyal yanaşmasını görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Ermənilər həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətdilər. Onlar tarixi torpaqlarımız olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirilməsini tələb edirdilər. Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. 1988-ci il noyabrın 17-də Bakının əsas meydanı sayılan indiki Azadlıq meydanında keşmiş sovet hakimiyyətinin xalqımıza qarşı apardığı siyasətə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin izdihamlı mitinqi başladı. Mitinq iştirakçıları respublikamıza qarşı ərazi iddiaları irəli sürən Ermənistanla iqtisadi əlaqələrin kəsilməsini, Topxanada görülən işlər barədə ətraflı məlumat verilməsini, Ağdam şəhərində qadağa saatının ləğv edilməsini, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində partiya və sovet orqanlarının buraxılmasını, orada Azərbaycanın hüquqi və siyasi hakimiyyətinin bərpa olunmasını və digər tələbləri irəli sürürdülər. Bütün xalq bir yumruq kimi birləşmişdi. Bu, əsl xalq, milli azadlıq hərəkatı idi. Respublikanın, bütün Azərbaycanın ürəyi Azadlıq meydanında döyünürdü. Həmin gün haqqında danışan Heydər Əliyev deyib ki, xalqın qanında yaşayan azadlıq istəyinin, müstəqillik arzusunun qabağını heç bir qüvvə, hətta ən güclü sel belə kəsə bilməz.

Noyabrın 17-də başlayan izdihamlı mitinqlər günlərlə gecə və gündüz davam etdi. Dekabrın əvvəllərində keçmiş sovet qoşunları ümumxalq mitinqini dağıtmağa nail olsalar da, sonradan xalqımızın müstəqillik uğrunda mübarizəsi dönməz bir məcraya yönəldi.

Son 200 illik tariximizin ən böyük qələbələri

Son 200 ildə daim azadlıq arzuları ilə yaşayan Azərbaycan xalqı bir sıra müsibətlərə düçar olub. Torpaqlarımız işğala məruz qalıb, sərhdlərimiz kiçilib, ərazilərimizdə Ermənistan adlanan dövlət qurulub.

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığımız möhtəşəm qələbələr isə son 200 illik tariximizdə və müstəqillik yolunda nail olduğumuz ən böyük uğurlarımızdır. Vətən müharibəsində qazanılan böyük Qələbə sayəsində Azərbaycan ərazi bütövlüyünü hərbi -siyasi yolla bərpa etdi. 2023-cü il sentyabrın 19-da isə Ordumuz separatçıların yuva saldıqları ərazilərimizdə lokal xarakterli antiterror tədbirləri keçirdi və cəmi 23 saat ərzində onu uğurla tamamladı.

Artıq Azərbaycan xalqı Milli Dirçəliş Gününü böyük qürur hissi ilə ölkənin bütün ərazisində qeyd edir. Respublikamızda Milli Dirçəliş Gününün yüksək səviyyədə qeyd olunmasına dövlət səviyyəsində böyük diqqət göstərilir. Təsadüfi deyildir ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər il Milli Dirçəliş Günü ilə bağlı özünün sosial şəbəkə hesabında paylaşımlar edir ki, bu da onun müstəqilliyimizə verdiyi böyük dəyərin ifadəsidir.

Mübariz FEYİZLİ

Beynəlxalq Valyuta Fondunun nikbin ssenarisi

Orta Dəhliz Qafqaz və Mərkəzi Asiyada iqtisadi dayanıqlılığı artıracaq

Beynəlxalq Valyuta Fondu (BVF) Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiya dövlətləri üzrə regional iqtisadi icmalını ictimaiyyətə təqdim edib. İcmalda bildirilir ki, 2026-cı ilin ötən dövrü ərzində dünyada hökm sürən geosiyasi gərginliklər, ticari və logistik məhdudiyyətlər qlobal iqtisadi müstəvidə qeyri-müəyyənliyi daha da artırıb. Qlobal iqtisadi mənzərə əsasən geosiyasi gərginliyin artması, qlobal enerji bazarlarında baş verən dalğalanmalar, artan inflyasiya təzyiqləri və beynəlxalq ticarətlə bağlı qeyri-müəyyənlik fonunda formalaşıb. BVF-nin proqnozlarına əsasən, qlobal iqtisadi artımın 2026-cı ildə 3 faiz, 2027-ci ildə isə 3,4 faiz artacağı gözlənilir ki, bu da aprel ayında təqdim olunmuş proqnozlarla müqayisədə 2026-cı il üzrə 0,1 faiz bənd az, 2027-ci il üzrə isə 0,2 faiz bənd çoxdur. Qlobal miqyasda inflyasiyanın səngiməsi prosesi müvəqqəti olaraq dayansa da, ümumi inflyasiyanın 2025-ci ildəki 4,1 faizdən 2026-cı ildə 4,7 faizə yüksələcəyi, 2027-ci ildə isə 3,9 faizə qədər azalacağı proqnozlaşdırılır.

Neftin bahalaşması Azərbaycan, Qazaxıstan və Türkmənistana müsbət təsir göstərir

BVF-nin Yaxın Şərq və Mərkəzi Asiya Departamentinin direktor müavini Roberto Kardarelli bildirib ki, Hörmüz boğazı vasitəsilə dəniz daşımalarında yaranan pozuntular xam neft, mayeləşdirilmiş təbii qaz bazarlarına təsir göstərərək istehsal və nəqliyyat xərclərinin artmasına səbəb olub. Bu vəziyyət neft ixracatçıları üçün şərtləri yaxşılaşdırmaqla, dəyər zəncirlərinə müsbət təsir göstərib. Kardarelli bildirib ki, mövcud vəziyyət Mərkəzi Asiya və Xəzər regionunun neft ixrac edən ölkələrinə, ilk növbədə, Azərbaycan, Qazaxıstan və Türkmənistana müsbət təsir göstərəcək. Belə ki, qlobal iqtisadiyyat üçün mövcud təhdidlərə və artan enerji xərcləri nəticəsində inflyasiya təzyiqinin artması ehtimalına baxmayaraq, xammal bazarlarındakı konyunktura və regionun neft ixrac edən ölkələri üçün ortamüddətli gözləntilər iqtisadi inkişafın müsbət vektorunu yaradır. Cari ilin sonunda 90 dollar civarında dövr edən neftin qiymətləri, o cümlədən etalon kimi qəbul olunan "Brent" markalı neftin qiymətinin bir bareli 86 dollar təşkil edəcək.



İnflyasiya riski səngiməyib

BVF-nin Departament direktorunun müavini Yaxın Şərq və Mərkəzi Asiya ölkələrində inflyasiya risklərinə toxunaraq bildirib ki, yanacaq subsidiyalarının yüksək səviyyəsi, idarə olunan valyuta rejimlərinin üstünlük təşkil etməsi və Mərkəzi bankların əhəmiyyətli dərəcədə müstəqil qərarlar verməsi xarici sarsıntılardan qaynaqlanan inflyasiya təzyiqini neytrallaşdırıb. Ancaq bununla belə, inflyasiya təzyiqləri hər an aktualdır. Aparılan təhlillərə əsasən, sənaye, ərzaq və xammal təchizatında logistika məhdudiyyətləri yaranır və dünyada bütün növ xammal və ehtiyatları bahalaşmış olur. ABŞ, Avrozona və digər regionlarda açıqlanan cari ilin üçüncü rübünün iqtisadi göstəricilərindəki durğunluq qlobal iqtisadiyyatda kəskin inflyasiyanın yarandığını şərtləndirir. Qafqaz və Mərkəzi Asiya ölkələri belə bir mühitdə qiymət artımlarına qarşı mübarizəni nəzarətdə saxlamaq üçün pul-kredit siyasətinin sərtləşdirilməsinə diqqət yetirməlidir.

Beynəlxalq Valyuta Fondunun rəsmisi onu da qeyd edib ki, iri infrastruktur və investisiya layihələrinin, o cümlədən Orta Dəhlizin inkişafı, həmçinin nəqliyyat-logistika əlaqələrinin möhkəmləndirilməsi Qafqaz və Mərkəzi Asiya ölkələri iqtisadiyyatlarının xarici şoklara qarşı dayanıqlığını artırır. Fondun təqdim etdiyi məlumatlar adıçəkilən region ölkələrinin əksəriyyətində iqtisadi artımın kifayət qədər yüksək səviyyədə qaldığını göstərir.

İxracın şaxələndirilməsi ticarətdə daha yaxşı nəticələr yaradır

Valyuta Fondunun Yaxın Şərq və Mərkəzi Asiya Departamentinin baş iqtisadçısı Florian Niş isə bildirib ki, idxal həcmləri, ticarət tərəfdaşlarının coğrafiyası və gətirilən məhsulların müxtəlifliyi baxımından region bütövlükdə qlobal tendensiyalara uyğundur. Lakin ixrac sahəsində tədarükün məhdud sayda əmtəə mövqelərində yüksək səviyyədə cəmləşməsi səbəbindən əhəmiyyətli boşluqlar qalmaqdadır. Xüsusilə də, son 20 il ərzində Mərkəzi Asiya ölkələrinin əksəriyyətində ixracın şaxələndirilməsində əhəmiyyətli irəliləyiş müşahidə olunmayıb. Ona görə də, qeyd edilən region ölkələri ixracda diversifikasiyanı artırmaqla, ticarətdə daha yaxşı nəticələr nümayiş etdirə bilər.

BVF nümayəndəsi regionun dayanıqlığını təmin edən digər mühüm amil kimi pul köçürmələrinin əhəmiyyətinə də diqqət çəkib. Belə ki, böyük maliyyə axınları iqtisadiyyatlara dəstək olur. Rusiya və Ukrayna arasında silahlı münaqişə başladıqdan sonra regiona əhəmiyyətli həcmdə maliyyə və insan kapitalı yönəlib, həmçinin pul köçürmələrinin məbləği artıb.

E.CƏFƏRLİ

Muxtar Babayev: İqlim maliyyəsi ölkələr üçün əlverişli və əlçatan olmalıdır



Bakıdan Belemə, daha sonra isə Antalyayadək iqlim öhdəliklərini icraata çevirmək məqsədilə birgə çalışdıq. Məsləhətləşmələrlə yanaşı, 148 yazılı təklifi bir araya gətirərək müvafiq sənədi hazırladıq. İqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün lazım olan həllərin bir çoxuna artıq sahibik. Lakin bu fəaliyyətlərin həyata keçirilməsi qeyri-kafi maliyyələşmə, texnologiyaya məhdud çıxış və zəif institusional imkanlar səbəbindən məhdudlaşmaqda davam edir.

Bunu Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində keçirilən "Belem Missiyası: 1,5-ə doğru" mövzusunda yüksək səviyyəli görüşdə çıxışı zamanı Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev deyib.



Onun sözlərinə görə, maliyyə məsələsi Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin və Milli Uyğunlaşma Planlarının həyata keçirilməsində ən sıx rast gəlinən maneədir.

"İnkişaf etmiş ölkələr tərəfindən 2024-cü ildə iqlim məqsədləri üçün ayrılan dövlət maliyyəsinin təxminən üçdə ikisi kreditlər şəklində olub, qrantlar isə cəmi 30 faizə yaxın hissəni təşkil edib. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrdə kapitalın dəyəri çox vaxt inkişaf etmiş iqtisadiyyatlardan iki-üç dəfə yüksək olur", - deyə M.Babayev qeyd edib.

COP29-un prezidenti məsələnin sadəcə daha çox vəsait səfərbər etməkdən ibarət olmadığını vurğulayıb. Prezidentin iqlim məsələləri üzrə nümayəndəsi bildirib ki, vacib olan maliyyənin əlverişli və əlçatan olmasını, həmçinin ölkələrin ehtiyaclarına uyğun gəlməsini təmin etməkdir.

"Artıq həm maneələr, həm də həll yolları barədə daha aydın təsəvvürə malikik. Ümumi məsuliyyətimiz ondan ibarətdir ki, daha möhkəm tərəfdaşlıqlar, daha səmərəli maliyyələşdirmə və praktiki səviyyədə ölçülə bilən irəliləyişlər vasitəsilə bu işin Antalyadan sonra da davam etməsini təmin edək", - deyə M.Babayev fikrini yekunlaşdırıb.

3,8 milyard avrodan çox...

Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycandakı investisiyalarını artırır

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı cari kredit portfeli 2026-cı il oktyabrın 31-nə olan dövrdə 879 milyon avro təşkil edib. Portfeldə özəl sektorun payı 40 faizdən 41 faizə yüksəlib. Kredit portfelinin 784 milyon avrosu və ya 89 faizi dayanıqlı infrastrukturun inkişafına, 65 milyon avrosu və ya 7 faizi isə maliyyə institutlarına yönəldilib. Hazırda bankın ölkəmizdə 35 aktiv layihəsi üzrə maliyyələşmə davam etdirilməkdədir. AYİB-in 2026-cı ilin ötən 10 ayı üzrə sərmayələrini də nəzərə aldıqda, ümumilikdə, Azərbaycana yatırdığı investisiyaların həcmi 3 milyard 831 milyard avroya çatıb.

Bankın Azərbaycandakı əsas maliyyələşmə prioritetləri qeyri-neft sektorunun inkişafı, mühüm infrastrukturların, o cümlədən nəqliyyat və kommunikasiya sahələrində regional layihələrin dəstəklənməsi, yerli maliyyə institutlarının gücləndirilməsi və "yaşıl iqtisadiyyat"a keçidin təmin olunmasıdır.

Külək və Günəş stansiyalarının inşasında yaxın tərəfdaş

AYİB Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihəsinin maliyyələşdirilməsində Azərbaycanın ən yaxın tərəfdaşı olub. Bank ənənəvi enerji sektoru ilə yanaşı, bərpaolunan enerji layihələrində də ölkəmizlə sıx əməkdaşlıq edir. İndiyə qədər 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası, 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyası, Neftçaladakı "Bankə" Günəş Elektrik Stansiyası və "Biləsuvar" Günəş Elektrik Stansiyasının tikintisində də AYİB birbaşa əsas maliyyə təchizatçısı olub. Avropa Bankı, həmçinin Qobustan Günəş Elektrik Stansiyasının inşasında maliyyə dəstəyini göstərib.

Energetika Nazirliyi ilə AYİB arasında imzalanmış elektroenergetika sektorunun inkişafı ilə bağlı texniki dəstəyə dair Anlaşma Memorandumu çərçivəsində digər layihələr də həyata keçirilib. "Azərbaycanda kiçik miqyaslı bərpa olunan enerji layihələri üçün lazımi normativ çərçivənin tətbiqinin dəstəklənməsi" layihəsi üzrə digər alternativ enerji mənbələrinin tədarükü və digər bərpaolunan layihələrin də maliyyələşməsində beynəlxalq donor kimi fəaliyyətini davam etdirir.



"Xəzər-Qara dəniz-Avropa" "yaşıl dəhlizi"nin maliyyələşdirilməsi

Ümumilikdə, AYİB 2027-ci ilədək 8 külək və Günəş elektrik stansiyasının istismara hazırlanmasına kreditlər ayırmaqla bağlı Bakı ilə razılaşıb. Həmçinin, Avropa Bankı "Xəzər-Qara dəniz-Avropa" və "Azərbaycan-Mərkəzi Asiya-Avropa" "yaşıl enerji" dəhlizlərinin yaradılmasında da əsas maliyyə tərəfdaşlarından biri kimi çıxış edir. Bir müddət əvvəl ölkəmizdə olan AYİB-in Türkiyə və Qafqaz üzrə icraçı direktoru Elisabetta Falçetti Azərbaycanın "yaşıl enerji" dəhlizlərinin yaradılması istiqamətində atdığı addımları yüksək qiymətləndirib, bankın aşağı karbonlu enerjiyə keçid, "yaşıl texnologiyalar" sahəsində layihələrin icrası və gələcək əməkdaşlıqda "yaşıl enerji"yə xüsusi önəm verəcəyini xatırladıb.

Bank Azərbaycan və Özbəkistan hökumətləri tərəfindən təsis edilmiş "Azərbaycan-Özbəkistan İnvestisiya Fondu"nun maliyyə portfelinin artırılması üçün 158 milyon dollar ayırmağı da nəzərdən keçirir.

Gəncə üçün 120 milyon avroluq kredit xətti

Avropa Bankı hazırda bərk məişət tullantılarının idarə edilməsi, küçə işıqlandırmasının modernləşdirilməsi və su infrastrukturunun inkişafı sahəsində kapital qoyuluşlarına töhfə vermək niyyətindədir. Bu kursa əsasən, Gəncədə su təchizatı və kanalizasiya sistemlərinin modernləşdirilməsi üçün nəzərdə tutulan 120 milyon avro həcmində ikinci kreditin ayrılmasını da nəzərdən keçirir. E. Falçetti bildirib ki, "Yaşıl şəhərlər" proqramı çərçivəsində Gəncədə Fəaliyyət Planının hazırlanmasına qərar verilib. Digər istiqamətlər üzrə su təchizatı layihələrinin maliyyələşməsinə, ümumilikdə, investisiya proqramı çərçivəsində təxminən 410 milyon avro məbləğində kapital ayrılması gözlənilir.

AYİB-in planına Şəkidə su təchizatı, çirkab və yağış suları infrastrukturunun inşası və bərpası daxildir. Şəki üçün 91 milyon avro məbləğində kredit sazişinin imzalanması planlaşdırılır. Eləcə də, Bakıda və Abşeron yarımadasının ərazisində 3 milyondan çox sakinə xidmət göstərən su təchizatı sisteminin təkmilləşdirilməsi layihəsinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına başlanılıb. Paralel olaraq bankın paytaxtda uzun müddət çirklənməyə məruz qalmış ərazilərin bərpasında iştirakı imkanları araşdırılır. Məqsəd ekoloji cəhətdən zərər çəkmiş ərazilərin yerli icmalar və investisiyalar üçün daha sağlam və cəlbedici məkanlara çevrilməsinə şərait yaratmaqdır.


Kiçik və orta biznes üçün 75 milyon avro dəstək

AYİB münaqişələrdən zərər çəkmiş ölkələrin dəstəklənməsinə də irihəcmli vəsaitlər ayırmağı planlaşdırır ki, həmin siyahıda Azərbaycan da yer alır. Belə ki, münaqişənin iqtisadi və sosial fəsadlarına məruz qalmış ölkələrdən biri kimi Azərbaycanın vaxtilə münaqişə bölgəsi olan rayonlarının ailə təsərrüfatlarında iqtisadi fəallığın dəstəkləməsi, əsas xidmətlərin davamlılığının təmin edilməsi nəzərdə tutulur.

Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda kiçik və orta biznesin maliyyələşdirilməsində də fəal rol oynayır. Cari ilin iyun ayında bu sahəyə daha çox dəsrək vermək məqsədilə "Access-Bank"a 75 milyon avro həcminə portfel vəsaitinin verilməsi razılaşdırılıb. Həmin vəsaitin birbaşa kiçik və orta sahibkarlığın maliyyə ehtiyaclarının qarşılanmasına yönəldilməsi nəzərdə tutulur. Layihə çərçivəsində adıçəkilən bankın kapital imkanlarının genişlənəcəyi və yeni kreditlərin verilməsi üçün əlavə resurs yaranacağı gözlənilir. Maliyyələşdirmə əsasən gənclərə və qadınlara məxsus biznesə, eləcə də regionlarda fəaliyyət göstərən sahibkarlara yönəldiləcək. Bu isə inklüziv regional iqtisadi inkişafı dəstəkləməlidir.

E.CƏFƏRLİ

ABŞ doqquz tərəfdaş ölkə ilə süni intellektin təhlükəsizliyinə dair saziş imzalayıb



ABŞ Dövlət Departamentinin məlumatına görə, Birləşmiş Ştatlar və doqquz tərəfdaş ölkə bazar günü süni intellektin (AI) əsasını təşkil edən kritik texnologiyaların və təchizat zəncirlərinin təhlükəsizliyini gücləndirmək üçün saziş imzalayıb.

AZƏRTAC ABŞ Dövlət Departamentinin veb-saytına istinadla xəbər verir ki, "Dayanıqlı rifahın təhlükəsiz təməlləri haqqında" San-Fransisko Bəyannaməsini ABŞ, Avstraliya, Hindistan, İsrail, Yaponiya, Cənubi Koreya, Qətər, Sinqapur, Birləşmiş Ərəb Əmirlikləri və Böyük Britaniya imzalayıb.

ABŞ-nin rəhbərlik etdiyi "Pax Silica" təşəbbüsü çərçivəsində imzalanan saziş nəqliyyat şəbəkələri, rəqəmsal platformalar, enerji infrastrukturu və logistika da daxil olmaqla qabaqcıl AI sistemlərinin inkişafı üçün lazım olan həssas texnologiyaları və kritik infrastrukturu qorumağı hədəfləyir.

Bəyannamədə iqtisadi təhlükəsizlik tədbirləri, qüvvələrin yerləşdirilməsi və məhdudiyyətlər tələb edib.

Qeyd edək ki, NATO-da fikir ayrılıqları Donald Trampın ABŞ-da yenidən hakimiyyətə gəlməsi ilə artıb. Hələ seçki kampaniyası ərəfəsində D.Tramp NATO üzvlərindən hərbi xərclərini ümumdaxili məhsulun (ÜDM) üç faizinə qaldırmalarını tələb edirdi. O, eyni zamanda seçkilərdə qalib gələcəyi təqdirdə NATO-nun şərqə doğru genişlənməsinin qarşısını almaq və Şimali Atlantika Alyansının bəyin milli maraqlar üçün əsas olduğu vurğulanır və şaxələndirilmiş, etibarlı təchizat zəncirləri vasitəsilə həddindən artıq asılılıqların azaldılmasına çağırılır.

İştirakçılar, həmçinin innovasiya siyasəti, AI-nin tətbiqi, təchizat zənciri əməkdaşlığı və təhlükəsizlik üzrə işçi qrupları yaratmaq barədə razılığa gəliblər.

ABŞ Dövlət Departamenti bildirib: "Heç bir dövlət süni intellekt dövrünün təməllərini təkbaşına təmin edə bilməz".

"Financial Times" qəzetinin ABŞ-nin dövlət katibinin iqtisadi məsələlər üzrə müavini Ceykob Helberqə istinadla verdiyi məlumata görə, Almaniya, İsveç, Niderland və Avropa Komissiyasının gələn həftə bəyannaməni imzalayacağı gözlənilir.

Razılaşma ABŞ-Çin ticarət gərginliyi fonunda Çinin Şençjen şəhərində keçiriləcək 33-cü Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı (APEC) iqtisadi liderlərinin sammiti çərçivəsində ABŞ Prezidenti Donald Tramp, Çinin Sədri Si Cinpin və Rusiya lideri Vladimir Putin arasında cümə axşamı planlaşdırılan üçtərəfli görüşdən əvvəl imzalanıb.

NATO-nun Albaniya sammiti niyə təxirə salınıb?

Səbəb kimi böyük maliyyə xərcləri göstərilsə də, alyans daxilində ziddiyyətlər istisna deyil

NATO alyans daxilindəki fikir ayrılıqları, müttəfiqlər arasındakı gərginlik fonunda ən yüksək və nazir səviyyəsindəki görüşlərin sayını azaldır. "Associated Press" agentliyinin məlumatına görə, xüsusilə, 2027-ci ildə Albaniyada planlaşdırılan liderlər sammiti olmayacaq və xarici işlər nazirləri iki görüş əvəzinə yalnız bir görüş keçirəcəklər. NATO-nun baş katibi Mark Rütte bildirib ki, alyans sammitlərin təşkilinə çevik yanaşır və onları ehtiyac yarandıqda keçirir. Təxminən 2014-cü ilə qədər NATO-nun sammitləri iki ildən bir baş tutub.

"Yenidənqurma paketi"nin bir hissəsi...

Nazirlər səviyyəsində görüşlərin sayı da azaldılır. Cari ilin oktyabrında alyans ölkələrinin müdafiə nazirləri bir araya gəlməyib, 2027-ci ilin oktyabrına da belə görüş planlaşdırılmayıb. Gələn il xarici işlər nazirləri iki görüş əvəzinə yalnız bir görüş keçirəcəklər. NATO bu dəyişiklikləri "yenidənqurma paketi"nin bir hissəsi adlandırır.

"Associated Press" ittifaq zirvələrini "böyük maliyyə xərcləri və ciddi siyasi xərclər" tələb edən hadisə adlandırır. Belə ki, 2025-ci ildə Niderlandda görüşə hazırlıq təxminən bir il çəkib və təxminən 100 milyon dollara başa gəlib. Türkiyə sammiti həmçinin şəhər sakinləri üçün genişmiqyaslı təhlükəsizlik tədbirləri, qüvvələrin yerləşdirilməsi və məhdudiyyətlər tələb edib.

Qeyd edək ki, NATO-da fikir ayrılıqları Donald Trampın ABŞ-da yenidən hakimiyyətə gəlməsi ilə artıb. Hələ seçki kampaniyası ərəfəsində D.Tramp NATO üzvlərindən hərbi xərclərini ümumdaxili məhsulun (ÜDM) üç faizinə qaldırmalarını tələb edirdi. O, eyni zamanda seçkilərdə qalib gələcəyi təqdirdə NATO-nun şərqə doğru genişlənməsinin qarşısını almaq və Şimali Atlantika Alyansının bəzi ölkələrini Vaşinqtonun təhlükəsizlik zəmanətindən məhrum etmək imkanlarını nəzərdən keçirəcəyini bəyan etmişdi. Tramp vurğulamışdı ki, ÜDM-in iki faizindən azını müdafiə sahəsinə ayıran NATO üzvləri ABŞ-dan yardım və təhlükəsizlik zəmanəti ala bilməyəcəklər. O, dövlət başçısı seçildikdən sonra bu tələblərini NATO müttəfiqləri qarşısında qaldırdı. Alyans üzvləri bu tələbi bir neçə il ərzində yerinə yetirəcəklərini vəd ediblər.



Yaxın Şərq problemi fikir ayrılıqlarının əsas səbəblərindəndir

Ümumiyyətlə, NATO daxilindəki fikir ayrılıqları əsasən ABŞ ilə Avropa müttəfiqləri arasındakı gərginlik, hərbi xərclərin bölüşdürülməsi və Yaxın Şərqdəki proseslərlə əlaqələndirilir. Alyans daxilindəki əsas ziddiyyətlər aşağıdakı istiqamətlərdə özünü göstərir: Yaxın Şərq və Hörmüz boğazı məsələsi. NATO müttəfiqlərinin Hörmüz boğazının açılması məsələsində ABŞ-a dəstək verməkdən imtina etməsi Vaşinqtonda kəskin narazılıq yaratdı. ABŞ Prezidenti Donald Tramp bu addımı alyansın nüfuzuna dəyən ləkə adlandırıb. ABŞ-İran müharibəsi ətrafında ziddiyyətlər də alyans daxilində müəyyən fikir ayrılıqları yaradıb. NATO-nun sabiq rəhbərləri də müttəfiqlər arasında İran müharibəsi, ticarət və iqlim dəyişikliyi kimi qlobal mövzularda ciddi fikir ayrılıqlarının olduğunu təsdiqləyiblər.

Bundan əlavə, ABŞ qoşunlarının Avropadan çıxarılması və müdafiə xərclərini azaltması müttəfiqlər tərəfindən narahatlıqla qarşılanır. Məsələn, Donald Tramp administrasiyasının Almaniyadan təxminən 5 min amerikalı hərbçini çıxarmaq qərarı NATO müttəfiqləri arasında ciddi narahatlığa səbəb olub. Həmçinin, Vaşinqton Avropa ölkələrini öz təhlükəsizlikləri üçün daha çox vəsait ayırmağa və məsuliyyəti üzərlərinə götürməyə çağırır. Avropa müttəfiqləri isə vəsaitin həcmindən çox, onun hansı istiqamətlərə xərclənməsinin vacibliyini önə çəkirlər.

Bütün bunların fonunda alyans daxilində yüksək səviyyəli görüşlərin təxirə salınması diqqəti cəlb edir. Müttəfiqlər arasındakı gərginlik fonunda NATO yüksək və nazir səviyyəsindəki görüşlərin sayını azaldıb. 2027-ci ildə Albaniyada planlaşdırılan liderlər sammitinin ləğv edilməsi və xarici işlər nazirlərinin görüşlərinin sayının yarıya endirilməsi də bunun göstəricisidir.

NATO Avropa təhlükəsizliyinin dayağı olaraq qalacaq

Hazırda Rusiya-Ukrayna müharibəsinə yanaşmada da alyans daxilində fikir ayrılıqları var. ABŞ Kiyevin müəyyən güzəştlərə getməsinin tərəfdarı olsa da, Avropa müttəfiqləri bu ideyaya qarşı çıxır. Qoca qitədə hesab edirlər ki, əgər Ukrayna məsələsində güzəşt olarsa, Rusiyanın növbəti hədəfi Avropa ölkələri olacaq. Yeri gəlmişkən, bugünlərdə Fransa Prezidenti Emmanuel Makron Ukraynanın NATO-ya üzv olmasının zəruriliyini vurğulayıb. O, bu barədə "X" sosial şəbəkəsində gələcək Avropa təhlükəsizlik arxitekturasını şərh edərkən bildirib. "Əminəm ki, gələcək təhlükəsizlik sistemində Ukrayna və NATO əsas rol oynamalı olacaq. Ukraynanın yeri Alyans daxilindədir", -deyə Fransa Prezidenti qeyd edib. Avropa ölkələri ilə Rusiya arasında mümkün təmaslara da toxunan Fransa lideri qeyd edib ki, bu dialoqun əsas məqsədi müharibədən sonrakı dövrə dair Avropanın baxışlarını izah etmək olmalıdır. Eyni zamanda o, qitənin uzunmüddətli təhlükəsizliyini təmin etmək üçün ABŞ-dan gözləntilərin dəqiqləşdirilməsinin vacibliyini bildirib. Emmanuel Makron, həmçinin Kiyevə göstərilən yardımın davam etdirilməsinə çağırıb.

ABŞ Prezidentinin xüsusi nümayəndəsi Cared Kuşner isə NATO-nun Avropa təhlükəsizliyinin əsas elementi olaraq qalacağını, lakin qurumun bəzi təkmilləşdirilmiş mexanizmlərlə gücləndirilməsinə ehtiyac yarana biləcəyini bildirib. Onun sözlərinə görə, NATO Avropa təhlükəsizliyinin dayağı olaraq qalacaq: "Alyans daha güclü hərbi kommunikasiya mexanizmləri, münaqişələrin qarşısının alınması tədbirləri və qarşılıqlı gərginliyin azaldılması yolu ilə möhkəmləndiriləcək. Biz həmçinin münaqişələrin münaqişəyə çevrilməzdən əvvəl həlli üçün praktik addımlardan danışırıq". O əlavə edib ki, məhz bu səbəbdən Avropa ölkələrinin Ukrayna böhranının nizamlanması üzrə danışıqlarda iştirakı mühüm əhəmiyyət daşıyır. C.Kuşner əmin olduğunu bildirib ki, ABŞ Prezidenti Donald Tramp yalnız Ukrayna və Avropanın təhlükəsizliyini gücləndirən, gələcək münaqişələrin qarşısını alan razılaşmaya dəstək verəcək.

N.BAYRAMLI

Cinayət iqtisadiyyatı

İnternetdən milyardlar qazanan gizli şəbəkələr

Bu gün dünyanın istənilən ölkəsində yaşayan insan bir neçə dəqiqə ərzində cinayətkarların hədəfinə çevrilə bilər. Telefonuna gələn saxta bank mesajı, sosial şəbəkədə qarşılaşdığı investisiya təklifi, internetdə tanış olduğu şəxsin sevgi etirafı və ya yüksək maaş vəd edən iş elanı bəzən böyük maliyyə itkilərinin başlanğıcı olur. Maraqlısı budur ki, bu cinayətlərin arxasında çox vaxt tək bir şəxs dayanmır, müxtəlif ölkələrdə fəaliyyət göstərən, öz aralarında vəzifə bölgüsü aparan, pul köçürmələrini təşkil edən və qazancı gizlədən böyük şəbəkələr durur.

Beynəlxalq təşkilatların son hesabatları göstərir ki, internet üzərindən həyata keçirilən maliyyə fırıldaqları artıq qlobal təhlükəyə çevrilib. İnterpolun 2026-cı ilin martında açıqladığı hesabatda maliyyə fırıldaqçılığının mütəşəkkil cinayətkarlıq, insan alveri və kibercinayətkarlıqla birləşdiyi bildirilir. Noyabrın 5-də isə çirkli pulların yuyulmasına qarşı mübarizə aparan Maliyyə Tədbirləri üzrə İşçi Qrupu (Financial Action Task Force - FATF) internet fırıldaqlarından əldə edilən pulların beynəlxalq şəbəkələr vasitəsilə necə gizlədildiyini açıqlayan yeni hesabat yayıb. Bütün bunlar bir həqiqəti ortaya qoyur: cinayətkarlıq dəyişir, müasir texnologiyalardan istifadə edir və getdikcə daha mürəkkəb iqtisadi sistemə çevrilir.

Cinayət iqtisadiyyatı nədir?

İlk növbədə "cinayət iqtisadiyyatı" anlayışını izah edək. Sadə dillə desək, bu, qanunsuz yollarla pul qazanmaq, həmin pulu başqa şəxslərə və şirkətlərə ötürmək, gizlətmək və yenidən dövriyyəyə buraxmaq üçün qurulan fəaliyyət sistemidir. Adi iqtisadiyyatda insanlar məhsul istehsal edir, xidmət göstərir, ticarətlə məşğul olur və qanuni gəlir əldə edirlər; cinayət iqtisadiyyatında isə gəlir oğurluq, dələduzluq, narkotik ticarəti, insan alveri, qanunsuz qumar, saxta investisiya və digər cinayətlər hesabına formalaşır. Burada əsas məsələ yalnız cinayətin törədilməsi deyil; cinayətkarlar əldə etdikləri pulları necə gizlətməyi, başqa ölkələrə köçürməyi və qanuni gəlir kimi göstərməyi də əvvəlcədən planlaşdırırlar. Buna görə də belə şəbəkələrdə təkcə fırıldaqçılar yox, pul köçürmələrini təşkil edən vasitəçilər, saxta şirkətlər yaradan şəxslər və qanunsuz gəlirləri gizlədən maliyyə iştirakçıları da rol oynayır. Bu fəaliyyətin ən təhlükəli tərəfi onun sərhəd tanımamasıdır. Bir ölkədə yaşayan şəxs başqa ölkədəki cinayətkar tərəfindən aldadıla, onun pulu üçüncü ölkədəki hesaba köçürülə, daha sonra müxtəlif maliyyə əməliyyatları vasitəsilə gizlədilə bilər.

Bir telefon zəngiylə başlayan milyonluq fırıldaq

Müasir cinayət iqtisadiyyatının ən geniş yayılmış istiqamətlərindən biri internet üzərindən həyata keçirilən maliyyə fırıldaqlarıdır. Cinayətkarlar insanları aldatmaq üçün müxtəlif üsullardan istifadə edirlər: bəzən özlərini bank əməkdaşı, dövlət qurumunun nümayəndəsi və ya tanınmış şirkətin işçisi kimi qələmə verirlər, bəzən də sosial şəbəkələrdə yüksək qazanc vəd edən reklamlar yerləşdirirlər. Xüsusilə saxta investisiya təklifləri geniş yayılıb - insanlara az məbləğdə pul yatırmaqla qısa müddətdə böyük gəlir əldə edəcəkləri bildirilir. İlk mərhələdə onlara saxta qazanc göstərilir. Bu görüntü qurbanın etibarını artırır və onu daha çox pul yatırmağa həvəsləndirir. Şəxs böyük məbləğ köçürəndən sonra isə hesabına daxil ola bilmir, pulunu geri ala bilmir və onunla əlaqə kəsilir.

Avropa Polis Təşkilatının (Europol) 3 noyabr 2026-cı il tarixli məlumatı belə cinayətlərin beynəlxalq miqyasını göstərir. Almaniya və digər ölkələrin hüquq-mühafizə orqanlarının iştirak etdiyi əməliyyat zamanı saxta investisiya platformalarının fəaliyyətinə xidmət göstərməkdə şübhəli bilinən infrastruktur hədəfə alınıb. 100-dən çox server ələ keçirilib, yeddi nəfər saxlanıb. Araşdırmaya görə, şəbəkənin potensial qurbanları 50-dən çox ölkədə olub, müəyyən edilmiş zərər isə 4 milyon avronu keçib.

Cinayətkarlar saxta internet səhifələri vasitəsilə insanları kriptovalyuta, xarici valyuta və səhmlərə investisiya yatırmağa çağırıblar. Onlar əvvəlcə kiçik məbləğdə pul qəbul edib, sonra qurbanlara ekranda uydurma qazanc göstərərək daha çox pul köçürmələrinə nail olublar. İnsanlar vəsaitlərini geri istəyəndə isə müxtəlif bəhanələrlə prosesi uzadıblar. Bu hadisə göstərir ki, internetdə peşəkar görünən hər bir şirkət və investisiya platforması etibarlı olmaya bilər.



Sevgi və etimaddan istifadə edən cinayətkarlar

Cinayətkarların başqa bir üsulu insanların hisslərindən və etibarından istifadə etməkdir. Sosial şəbəkələrdə və tanışlıq platformalarında saxta profillər yaradan şəxslər əvvəlcə qurbanla uzun müddət ünsiyyət qurur, özlərini mehriban, qayğıkeş və etibarlı insan kimi təqdim edirlər. Münasibət müəyyən səviyyəyə çatandan sonra isə müxtəlif bəhanələrlə pul istəyirlər. Bəzən guya xaricdə çətin vəziyyətə düşdüklərini, bəzən təcili əməliyyata ehtiyacları olduğunu, bəzən də birlikdə gələcək qurmaq üçün maliyyə vəsaitinə ehtiyac duyduqlarını bildirirlər. Qarşı tərəf isə artıq həmin şəxsə emosional bağlılıq hiss etdiyi üçün pul göndərir. Bu cür cinayətlərə romantik fırıldaqçılıq deyilir.

Onun təhlükəsi ondadır ki, qurban yalnız pulunu itirmir, eyni zamanda ciddi psixoloji zərbə alır.

İnterpolun 2026-cı il üzrə hesabatında romantik fırıldaqçılıq, saxta investisiya təklifləri və şəxsi görüntülərlə şantajın bir-biriylə əlaqəli şəkildə həyata keçirildiyi qeyd olunur. Cinayətkarlar süni intellekt vasitəsilə saxta şəkillər, videolar və səslər hazırlayaraq insanları daha asan aldada bilirlər.

Süni intellekt cinayətkarların işini asanlaşdırır

Əvvəllər saxta video hazırlamaq, başqa şəxsin səsini təqlid etmək və ya inandırıcı saxta sənəd yaratmaq üçün xüsusi texniki biliklər tələb olunurdu. Bu günsə süni intellekt alətləri həmin işləri xeyli asanlaşdırıb. Məsələn, cinayətkar internetdə yayımlanmış bir neçə video və səs yazısından istifadə edərək insanın danışıq tərzini və səsini təqlid edə bilər. Daha sonra onun yaxınlarına zəng edərək özünü həmin şəxs kimi qələmə verib təcili pul istəyə bilər. Bəzən saxta videozənglər vasitəsilə də insanları aldatmağa çalışırlar. Ekranda görünən şəxsin üzü tanış olsa da, həmin görüntü həqiqi olmaya bilər. Belə saxtalaşdırılmış görüntülər "deepfake" adlanır. Bu termin süni intellekt vasitəsilə yaradılan və ya dəyişdirilən saxta video və səs materiallarını ifadə edir.

İnterpol 19 oktyabr 2026-cı ildə bu təhlükəylə bağlı xüsusi maarifləndirmə kampaniyasına başlayıb. Təşkilat bildirir ki, süni intellektlə yaradılan saxta görüntülər artıq yalnız tanınmış şəxsləri yox, adi vətəndaşları da hədəf alır. Bu səbəbdən yaxın adamınızdan təcili pul istəyən zəng və ya mesaj alanda həmin şəxslə əvvəlcədən məlum olan başqa əlaqə vasitəsilə danışıb məlumatı yoxlamaq vacibdir.

Qurbanlar yenidən cinayətə cəlb edilir

Cinayət iqtisadiyyatının ən ağır tərəflərindən biri də insan alveriylə əlaqəsidir.

Beynəlxalq təşkilatların məlumatlarına görə, bəzi ölkələrdə cinayətkar qruplar insanları yüksək maaşlı iş vədiylə xaricə aparır, sonra da onları qapalı obyektlərdə saxlayaraq internet fırıldaqları törətməyə məcbur edirlər. Belə obyektlərdə insanlar gün ərzində müxtəlif ölkələrdə yaşayan şəxslərə zəng edir, saxta investisiya təklifləri göndərir, sosial şəbəkələrdə saxta profillər yaradır və pul köçürmələri təşkil edirlər. İşləməkdən imtina edənlərsə çox vaxt təhdid və zorakılıqla üzləşirlər.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC) 2026-cı ilin sentyabrında bu məsələylə bağlı yaydığı məlumatda Cənub-Şərqi Asiyada 80-dən çox ölkədən olan insanların belə cinayət mərkəzlərində müəyyən edildiyini bildirib. Bəzi şəxslər aldadılaraq həmin mərkəzlərə gətirilir və cinayət törətməyə məcbur edilirlər. Bu vəziyyət çox ciddi hüquqi və humanitar problem yaradır, çünki internetdə insanları aldadan hər bir şəxs cinayətkar olmaya bilər. Onların arasında insan alverinin qurbanı olan, hədə-qorxu altında işlədilən şəxslər də var. Hüquq-mühafizə orqanları belə hallarda cinayətin təşkilatçılarını və məcbur edilən insanları bir-birindən ayırmalıdır.


Çirkli pullar necə gizlədilir?

Cinayət nəticəsində əldə edilən pulun gizlədilməsi "çirkli pulların yuyulması" adlanır. Bu ifadə qanunsuz yolla qazanılmış vəsaitin mənbəyini gizlədərək onu qanuni gəlir kimi göstərmək deməkdir. Məsələn, cinayətkarlar dələduzluq yoluyla ələ keçirdikləri pulu birbaşa öz hesablarında saxlamaq əvəzinə müxtəlif şəxslərin bank hesablarından, saxta şirkətlərdən və rəqəmsal pul kisələrindən istifadə edə bilərlər: pul bir neçə dəfə başqa hesablara köçürülür, müxtəlif ölkələrə göndərilir və bəzən kriptovalyutaya çevrilir. Məqsəd pulun ilkin mənbəyini müəyyənləşdirməyi çətinləşdirməkdir. Bu prosesdə cinayətkarlar bəzən heç bir cinayətdə birbaşa iştirak etməyən adi insanlardan da yararlanırlar. Onlara bank hesablarını müəyyən məbləğ qarşılığında başqasına vermək və ya daxil olan pulu başqa hesaba köçürmək təklif olunur. Belə şəxslər beynəlxalq təcrübədə "pul qatırları" adlandırılır. Onlar cinayətkarların qanunsuz vəsaitləri hərəkət etdirməsinə kömək olurlar. Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (Financial Action Task Force - FATF) 5 noyabr 2026-cı il tarixli yeni hesabatında belə şəbəkələrin bank xidmətlərindən, mobil ödəniş sistemlərindən, kriptovalyutalardan və müxtəlif texnoloji vasitələrdən istifadə etdiyi göstərilir. Təşkilat üzvlərinin fikrincə, cinayətlə mübarizə yalnız fırıldaqçının tutulmasıyla bitməməlidir, onun ələ keçirdiyi pulun kimə çatdığını, hansı hesablardan keçdiyini və arxasında hansı təşkilatçıların dayandığını da müəyyənləşdirmək lazımdır.

Cinayətlə mübarizə yalnız cinayətkarı tutmaqdan ibarət deyil

Müasir cinayət şəbəkələri bir ölkədə yaradılıb başqa ölkədə fəaliyyət göstərə, üçüncü ölkədəki bank hesablarından istifadə edə və ələ keçirdiyi pulu dünyanın müxtəlif yerlərində gizlədə bilər. Buna görə də belə cinayətlərlə yalnız bir dövlətin mübarizə aparması yetmir. İnterpolun 2026-cı ilin iyulunda açıqladığı məlumat bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini göstərir. 97 ölkə və ərazinin iştirak etdiyi "First Light 2026" əməliyyatı zamanı 5811 nəfər saxlanıb, 293 milyon ABŞ dolları dəyərində qanunsuz aktivin hərəkəti dayandırılıb. Əməliyyat nəticəsində dünyada 142 mindən çox mümkün qurban müəyyən edilib. Bu rəqəmlər problemin miqyasını göstərir. Ancaq əsas məsələ tutulan cinayətkarların sayını artırmaq deyil, onların fəaliyyət göstərdiyi maliyyə və texnoloji sistemi dağıtmaqdır. Saxta internet səhifələri, qanunsuz pul köçürmələri, saxta şirkətlər və insanları aldadan çağrı mərkəzləri fəaliyyətini davam etdirdikcə yeni cinayətkarlar da meydana çıxacaq.

Cinayət iqtisadiyyatının qarşısını almaq üçün banklar, texnologiya şirkətləri, dövlət qurumları və beynəlxalq təşkilatlar birlikdə işləməlidir. Eyni zamanda hər bir insan internetdə qarşılaşdığı təkliflərə tənqidi yanaşmalı, asan və sürətli qazanc vədlərinə inanmamalı, şübhəli halları aidiyyəti qurumlara bildirməlidir. Müasir dövrdə cinayətkarlar yalnız küçələrdə və gizli məkanlarda fəaliyyət göstərmirlər, onlar bəzən ofislərdə, internet platformalarında, saxta şirkətlərin arxasında və beynəlxalq maliyyə əməliyyatlarının içində gizlənirlər. Onların əsas məqsədi insanların etibarını qazanmaq, sonra da pullarını ələ keçirib izini itirməkdir. Ən təhlükəli məqam isə budur ki, cinayət artıq ayrı-ayrı şəxslərin qanunsuz fəaliyyəti olmaqdan çıxaraq böyük gəlir gətirən və beynəlxalq əlaqələrə malik bir sistemə çevrilir. Bu sistemlə mübarizə aparmaq üçün cinayətin nəticələrini aradan qaldırmaq azdır, onun pul mənbəyini, təşkilatçılarını və fəaliyyətini təmin edən bütün əlaqələri üzə çıxarmaq lazımdır. Çünki cinayətkarın qazanc yolu bağlanmadıqca yeni qurbanların aldadılması da davam edəcək.



Kəramət QƏNBƏROV
Beynəlxaq hüquq üzrə ekspert

Bu təhlükə Azərbaycana nə dərəcədə aiddir?

İnternet fırıldaqları və maliyyə cinayətləri coğrafi sərhəd tanımır. Cinayətkarın başqa ölkədə yerləşməsi onun Azərbaycandakı vətəndaşı aldatmasına mane olmur. Əksinə, internet vasitəsilə müxtəlif ölkələrdə yaşayan insanları eyni vaxtda hədəfə almaq mümkündür. Azərbaycan vətəndaşları üçün də saxta investisiya reklamları, sosial şəbəkələrdə yayılan şübhəli qazanc vədləri, bank əməkdaşı adıyla vurulan zənglər, saxta iş elanları və şəxsi məlumatların ələ keçirilməsi kimi risklər var. Xüsusilə yüksək gəlir vəd verən, lakin fəaliyyətinin hüquqi əsasları aydın olmayan internet platformalarına ehtiyatla yanaşmaq lazımdır. Heç kimə bank kartının məlumatlarını, şifrələri və birdəfəlik təsdiq kodlarını vermək olmaz. Bank əməkdaşı olduğunu iddia edən şəxs belə bu məlumatları istəməməlidir. Digər mühüm məsələ insanların öz bank hesablarını başqasına verməməsidir. Sadə bir köçürmə kimi görünən əməliyyat əslində cinayət yoluyla ələ keçirilmiş pulun gizlədilməsinə xidmət edə bilər. Belə hallarda hesab yiyəsi özü də hüquqi məsuliyyətlə üzləşə bilər. Azərbaycan üçün bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi, banklarla hüquq-mühafizə orqanları arasında məlumat mübadiləsinin sürətləndirilməsi, kibercinayətlərin araşdırılması üçün mütəxəssislərin hazırlanması və əhalinin maarifləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



İlmələrdə yaşayan böyük irs

Lətif Kərimovun anadan olmasından 120 il ötür



Elə sənətkarlar var ki, adlarını yalnız tarixə deyil, xalqın yaddaşına həkk edirlər. Azərbaycan xalçaçı-rəssamı Lətif Kərimov da belə şəxsiyyətlərdəndir. O, ömrünü xalça sənətinin öyrənilməsinə, inkişafına və dünyada tanıdılmasına həsr edib. Lətif Kərimov xalçaya sadəcə ilmə, rəng və naxışların birləşməsi kimi baxmırdı. Onun üçün hər xalça bir xalqın yaddaşı, dünyagörüşü, zövqü, yaşantısı və əsrlərdən süzülüb gələn mənəvi sərvəti idi.

1906-cı il noyabrın 17-də Şuşada dünyaya gələn Lətif Kərimovun taleyi elə uşaqlıqdan xalça sənəti ilə bağlanıb. Bu bağlılıq sonralar böyük yaradıcılıq yoluna, elmi axtarışlara və Azərbaycan mədəniyyətinin dünyada tanıdılması missiyasına çevrildi. Bu gün onun doğum günü münasibətilə həyatına nəzər salarkən bir həqiqət aydın görünür: Lətif Kərimov xalçalar yaratmaqla yanaşı, Azərbaycan xalçasının tarixini, dilini və kimliyini də gələcək nəsillər üçün qoruyub.

Lətif Kərimovu digər xalçaçı-rəssamlardan fərqləndirən əsas cəhətlərdən biri ənənə ilə yeniliyi bir araya gətirməyi bacarması idi. O, Azərbaycan xalçaçılığının zəngin irsini dərindən öyrənir, ayrı-ayrı bölgələrə məxsus naxışları, kompozisiyaları, rəng çalarlarını və toxuma xüsusiyyətlərini araşdırırdı. 1929-cu ildə Azərbaycana qayıtdıqdan sonra doğma sənət mühitində fəaliyyətini davam etdirən rəssam 1930-cu ildən etibarən “Azərbaycanxalça” birliyində çalışdı. Onun təşəbbüsləri ilə Bakıda və Qubada xalça məktəblərinin açılması sənətin peşəkar əsaslarla inkişafına mühüm təkan verdi.

1932-ci ildə onun eskizləri əsasında toxunan “Əfşar” xalçası yaradıcılığının diqqətçəkən nümunələrindən biri oldu. Bu əsərdən başlayaraq Kərimovun yaradıcılığında milli ornamentlərin yeni bədii həlli, klassik ənənələrin müasir sənət düşüncəsi ilə uzlaşdırılması xüsusi yer tutdu.

Müəllim kimi yetişdirdiyi sənətkarlar

Lətif Kərimovun fəaliyyəti emalatxanalar, sərgilər və elmi araşdırmalarla məhdudlaşmırdı. O, bilik və təcrübəsini gənc nəslə ötürməyi də özünün mühüm vəzifələrindən hesab edirdi. Uzun illər Azərbaycan Dövlət İncəsənət İnstitutunda pedaqoji fəaliyyət göstərərək peşəkar rəssamların yetişməsinə töhfə verib.

Onun müəllimlik fəaliyyətində həm tələbkarlıq, həm də sənətə sevgi əsas yer tuturdu. Kərimov üçün sənətkar olmaq yalnız gözəl əsər yaratmaq demək deyildi. Bunun üçün milli mədəniyyəti tanımaq, onun köklərini öyrənmək, ənənəyə hörmətlə yanaşmaq və daim axtarışda olmaq lazım idi. Məhz bu yanaşma onun yetirmələrinin dünyagörüşünə də təsir göstərirdi. O, bir sənətkar kimi yaratmaqla yanaşı, bütöv bir sənət məktəbinin formalaşmasına xidmət etdi.

Parisdən başlayan beynəlxalq tanınma

Lətif Kərimovun sənəti Azərbaycan sərhədlərini çox erkən aşdı. 1934-cü ildə dahi fars şairi Firdovsinin anadan olmasının 1000 illiyinə həsr etdiyi xalça Parisdə keçirilən ümumdünya sərgisində nümayiş etdirildi. Bu hadisə Azərbaycan xalça sənətinin beynəlxalq miqyasda təqdimatı baxımından əlamətdar idi.

Paris sərgisində nümayiş olunan əsər yalnız bir rəssamın yaradıcılıq uğuru deyildi. Bu, Azərbaycan xalçasının zəngin kompozisiya imkanlarının, bədii ənənələrinin və yüksək sənətkarlıq səviyyəsinin dünya ictimaiyyətinə təqdimatı idi.

Lətif Kərimovun həyatında Şuşanın xüsusi yeri vardı. Ömrünün müxtəlif mərhələlərində fərqli şəhərlərdə yaşasa da, doğulduğu torpaq onun mənəvi dünyasının ayrılmaz hissəsi olaraq qaldı.

Sənətkarın xarakterini və yaradıcılığa münasibətini əks etdirən maraqlı bir məqam da var. Ondan ən sevimli xalçasının hansı olduğunu soruşanda belə cavab vermişdi: “Özümün yaratdığım bütün xalçalar mənim üçün əzizdir”.

Şuşaya bağlılıq və sənətkarın unudulmaz cavabı

Bu cavabda sənətkarın öz əsərlərinə münasibəti, zəhmətinə verdiyi dəyər və yaradıcılıq sevgisi aydın hiss olunur. Çünki hər xalçanın arxasında onun düşüncəsi, axtarışları, rəng duyumu və sənətə sərf etdiyi ömür dayanırdı.

Onun Şuşaya münasibətini ifadə edən “Şuşa havamdır” sözləri də yaddaşlarda qalıb. Bu qısa ifadə bir sənətkarın doğma şəhərinə bağlılığını, mənəvi dünyasının hansı torpaqdan güc aldığını göstərir.

Dövlətin yüksək qiymət verdiyi sənətkar

Lətif Kərimovun Azərbaycan mədəniyyətinə xidmətləri dövlət tərəfindən də yüksək qiymətləndirilib. O, Xalq rəssamı fəxri adına layiq görülüb, 1950-ci ildə SSRİ Dövlət mükafatını alıb, müxtəlif orden və mükafatlarla təltif edilib.

Görkəmli sənətkar 1991-ci il sentyabrın 8-də Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub. Lakin onun yaratdığı əsərlər, elmi araşdırmalar və formalaşdırdığı sənət məktəbi bu gün də yaşayır.

Yeganə BAYRAMOVA

Xəyallardan uğura uzanan yol...

Tələbəlik illəri: Gəncliyin ən böyük sərmayəsi

Böyük dəyişikliklər bir zamanlar auditoriyanın arxa sıralarında oturub dünyanı dəyişmək arzusunda olan gənclərin xəyalından başlayır. Bu gün tələbə adını daşıyan milyonlarla gənc yalnız diplom almaq, imtahanlardan keçmək və peşə sahibi olmaq üçün deyil, həm də özünü tanımaq, cəmiyyətə fayda vermək, yeni ideyalar yaratmaq üçün həyatının ən mühüm mərhələlərindən birini yaşayırlar. Hər il noyabrın 17-də qeyd olunan Beynəlxalq Tələbə Günü dünyanın müxtəlif ölkələrində təhsil alan milyonlarla gənci bir araya gətirən, tələbə həyatının əhəmiyyətini bir daha gündəmə gətirən əlamətdar tarixdir. Bu günün arxasında isə yalnız bayram əhval-ruhiyyəsi deyil, tarixin yaddaşına həkk olunmuş mübarizə, həmrəylik və azadlıq arzusu dayanır.



Beynəlxalq Tələbə Gününün yaranma tarixi 1939-cu ilin Çexoslovakiyasına gedib çıxır. Həmin il noyabrın 17-də nasist işğalına qarşı etiraz edən tələbələrə qarşı sərt repressiyalar həyata keçirildi. Praqada tələbə nümayişlərinin dağıdılması, tələbələrin həbs edilməsi, doqquz tələbə və universitet əməkdaşının edam olunması, ali təhsil müəssisələrinin bağlanması bu hadisələrin ən ağır nəticələri idi.

1941-ci ildə Londonda keçirilən Beynəlxalq Tələbələr Şurasının toplantısında 17 noyabrın Beynəlxalq Tələbə Günü kimi qeyd olunması qərara alındı. Beləliklə, bu tarix tələbələrin azadlıq, hüquq və ləyaqət uğrunda mübarizəsinin rəmzinə çevrildi.

Tələbə olmağın görünməyən tərəfi

Tələbəlik hər zaman xoş xatirələrdən, dostluqlardan və uğurlardan ibarət deyil. Bu dövr eyni zamanda ciddi sınaqlar, tərəddüdlər və seçimlərlə müşayiət olunur. İmtahan stressi, maddi çətinliklər, yaşayış və təhsil xərcləri, gələcək iş yeri ilə bağlı narahatlıqlar, nəzəri biliklərlə praktiki tələblər arasındakı fərq bir çox gəncin üzləşdiyi problemlər sırasındadır.

Bəzən tələbələr təhsillə yanaşı işləmək, ailələrinə dəstək olmaq və şəxsi inkişaflarına vaxt ayırmaq arasında tarazlıq yaratmağa çalışırlar. Digər tərəfdən, əmək bazarının dəyişən tələbləri gənclərdən universitet illərində əlavə bilik və təcrübə qazanmağı tələb edir.

Bu məqamda universitetlərin, müəllimlərin, ailələrin və bütövlükdə cəmiyyətin dəstəyi xüsusi əhəmiyyət kəsb edir. Tələbənin yalnız akademik nəticələrinə deyil, psixoloji rifahına, sosial vəziyyətinə, yaradıcılıq imkanlarına və fərdi inkişafına da diqqət yetirilməsi vacibdir. Unutmaq olmaz ki, hər bir uğurlu mütəxəssisin arxasında vaxtilə dəstəyə, istiqamətə və inama ehtiyac duyan bir tələbə dayanır.

Tələbəlik illərini fərqləndirən nədir?

Bu gün bir çox tələbə üçün uğur anlayışı yalnız yüksək qiymətlər və diplomla məhdudlaşmır. Kimisi elmi tədqiqat apararaq yeni kəşflərə imza atmaq, kimisi öz startapını yaratmaq, kimisi xarici universitetdə təhsilini davam etdirmək, digəri isə cəmiyyət üçün faydalı layihələr həyata keçirmək istəyir.

Müasir tələbəlikdə əsas məsələ imkanları gözləmək deyil, onları axtarmaq və yaratmaqdır. Təcrübə proqramlarında iştirak etmək, xarici dil öyrənmək, peşəkar əlaqələr qurmaq, elmi məqalələr yazmaq, müsabiqələrə qatılmaq və könüllü fəaliyyət göstərmək gələcək karyera üçün mühüm təməl yaradır. Ancaq bütün bunlarla yanaşı, tələbələrin özlərinə zaman ayırması, maraqlarını kəşf etməsi, kitab oxuması, mədəni tədbirlərdə iştirakı və yeni təcrübələr qazanması da vacibdir. Axı universitet illəri yalnız gələcəkdə işləmək üçün hazırlıq mərhələsi deyil, həm də insanın şəxsiyyət kimi formalaşdığı qiymətli bir həyat dövrüdür.

Yeganə BAYRAMOVA

Allah rəhmət eləsin!

BDU-nun Tətbiqi Riyaziyyat ETİ-nin direktoru akademik Fikrət Əliyev və İnstitutun əməkdaşları akademik Əli Abbasova anası
FATMA XANIM HƏSƏNOVANIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə baş sağlığı verirlər.

Allah rəhmət eləsin!

Alqış Musayev və Musa Musayev akademik Əli Abbasova anası
FATMA XANIM HƏSƏNOVANIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə baş sağlığı verirlər.

Allah rəhmət eləsin!

“Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Musayev və qəzetin kollektivi “525-ci qəzet”in baş redaktoru Rəşad Məcidə anası
YAVƏR XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4308
Sifariş: 1525
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova